HƏYAT BİLGİSİ

DƏRSLİK

6

Azərbaycan Respublikasının Dövlət Himni

Musiqisi Üzeyir Hacıbəylinin,
sözləri Əhməd Cavadındır.

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!
Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!

HEYDƏR ƏLİYEV

AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ

NÜŞABƏ MƏMMƏDOVA
KÖNÜL MAHMUDOVA

Ümumi təhsil müəssisələrinin **6**-*cı sinifləri üçün*

HƏYAT BİLGİSİ

fənni üzrə

DƏRSLİK

© Azərbaycan Respublikası Təhsil Nazirliyi

Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International (CC BY-NC-SA 4.0)

Bu nəşr Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International lisenziyası (CC BY-NC-SA 4.0) ilə www.trims.edu.az saytında yerləşdirilmişdir. Bu nəşrdən istifadə edərkən lisenziyanın şərtləri qəbul edilmiş sayılır:

İstinad zamanı nəşrin müəllif(lər)inin adı göstərilməlidir.

Nəşrdən kommersiya məqsədilə istifadə qadağandır.

Törəmə nəşrlər orijinal nəşrin lisenziya şərtləri ilə yayılmalıdır.

Bu nəşrlə bağlı irad və təkliflərinizi
info@eastwest.az və derslik@edu.gov.az
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

ŞƏRQ-QƏRB

MÜNDƏRİCAT

I. Mənəvi aləmim
1. Ünsiyyət mədəniyyəti 8
2. Davranış normaları..... 13
3. Ailə və Vətən qarşısında mənəvi borcumuz 18
4. Dini ibadətlər və mərasimlər..... 24

II. Dövlətimə arxalanıram
5. Dövlətdə idarəçilik..... 28
6. Cəmiyyətin idarə olunmasında dövlətin funksiyaları 31
7. Hüquqlarımızın qorunması 34
8. İqtisadi inkişaf..... 38

III. Cansızdan canlıya

9. Maddələrin tərkibi və xassələri 42
10. Elementlər 47
11. Bir maddədən yeni maddə alına bilərmi? 49
12. Saf maddələr və qarışıqlar 51
13. Qeyri-üzvi və üzvi maddələr 54
14. Üzvi maddədən canlıya 57
15. İnsan – təbiətin ali varlığı 60

IV. Təhlükəsiz həyat

16. Sağlamlığın şərtləri 64
17. Gigiyena sağlamlığın şərtidir 68
18. Yoluxucu xəstəliklərdən qorunma yolları 72
19. Təhlükəsizliyin təmin olunması 75
20. Təbiətdəki təhlükəli hadisələrdən qorunaq 79
21. Texnogen mənşəli qəzalardan qorunaq 87
22. Yol nişanlarına diqqət edək 90

İstifadə edilmiş ədəbiyyat 96

A Mövzuya giriş məqsədi daşıyır. Öncədən əldə olunmuş biliyə, nəzəri məlumata, praktik bacarığa, dünyagörüşünə əsaslanır. Yeni biliyə keçid təşkil edir.



Anası Aydanı üzgüçülük hovuzuna apardı. Hovuzun rahbariyi ondan Aydanın sağlamlığı haqqında arayış istədi. Sizcə, bu sahədə na ehtiyac var?

Yoluxucu xəstəliklər tahlükəli olub, bir insandan digərinə keçir. Bu xəstəliklərin çoxunu mikroorqanizmlər törədir. Törədiclər insan orqanizminə daxil olaraq orada müxtəlif xəstəliklərin yaranmasına səbəb olur.

Verilmiş xəstəlikləri törədiclərinə əsasən qruplaşdırın:
angina, vəbə, Sibir yarası, QİÇS, hepatit, vərəm, qrip, qızılca, çiçək.

Yoluxucu xəstəliklər insanı elə ağır vəziyyətə gətirib çıxara bilər ki, bu da sonda ölümlə nəticələnər. Bu xəstəliklərin törədiciləri orqanizmə hava-damcı yolu, su və qıda vasitəsilə, xəstə insanların əşyalarından istifadə etməklə, qanla, həşəratlar dişlədikdə, yaxud sancıqda daxil ola bilir.

Milçəklər 70-ə qədər yoluxucu xəstəlik yayır.

Yoluxucu xəstəliklərin bir qismini ***virislər*** törədir. Dünya sahiyyəsi virus xəstəliklərinə qarşı nə qədər mübarizə aparsa da, bu xəstəliklər azalmaq əvəzinə, daha da artır. Xəstəliklər haqqında az məlumatlı olub, qorunma qaydalarına diqqətsiz yanaşılarsa, bu zaman insan həyatını sona yetirəcək fəcia baş verə bilər. Bütün dünyanı cənginə almış Covid-19 infeksiyası nəticəsində ölkəmizdə minlərlə insan həyatını itirmişdir.

Mütəxəssislər hesab edirlər ki, virusların yoluxma yolları müxtəlifdir. Məsələn, qrip virusları insana hava-damcı yolu ilə yoluxur. Belə xəstələrin əşyalarından istifadə edən, xəstə ilə eyni otaqda olan insanların da qripə yoluxma ehtimalı çoxdur.

Bir çox virus xəstəliklərinin geniş yayıldığı məkanlar isə stomatoloji kabinetlər, gözəllik salonları, üzgüçülük hovuzlarıdır. Stomatoloji kabinetlərdə, gözəllik salonlarında avtoklavın (*ələtləri sterilləşdirmək üçün cihaz*) olması vacibdir.

B Bu işarə altında verilmiş sual və tapşırıqlar fəaliyyət üçündür.

C Mövzunun əsas məzmununu əhatə edir. Burada yeni mövzu ilə bağlı izahlar, anlayışlar, təriflər və s. verilir.



Əsəbləşdiyiniz zaman:
- *dayanın və düşünün;*
- *10-a qədər sayın və sakitləşin;*
- *nə edə biləcəyinizi fikirləşin;*
- *düzgün çıxış yolu seçin.*

Unutmayın ki, sadalanan qaydalara əməl etsəniz və yoldaşlarınız arasında bu qaydaların tətbiqi ilə bağlı təbliğat aparsanız, müsbətsə yaranmaz.

Hər hansı bir problemin həllində danışmaq qədər dinləmək də böyük rol oynayır. Qarşı tərəfi dinləmək, sözünü kəsməmək, deyilənə ləqeyd yanaşmamaq qarşılıqlı anlaşmaya, ünsiyyətin qurulmasına müsbət təsir göstərir.

Sözün da sıxıntısı lüzufdı var,
Hər sözü az demək daha xoş olur.
Bir incə sağlığı varsa da sağa,
Ağlıq çıxlarda dərd verir o da.
N.Gəncəvi

Dinləmə-yə öyrənsən, hətta on pis danışıqdan da faydalana bilərsən.
Plutarx

Müdrik kəlamlarda hansı fikirlər ifadə olunmuşdur? Sizcə, təklif olunanlar mübahisələrin qarşısını ala bilərmi?

İstər sinif yoldaşlarınız, dostlarınız, istərsə də ailə üzvləriniz, yaşlı nəslin nümayəndələri ilə danışarkən əvvəlcə onlara verəcəyiniz suallar, deyəcəyiniz sözlər ətrafında düşünün:

D Mövzu ilə bağlı statistik məlumatlar, maraqlı faktlar, görkəmli şəxsiyyətlərin kəlamları verilir.

E Mövzu ilə bağlı sxemlər verilir.

Siz dövlətin yaranması haqqında məlumatlısınız. Dövlət yarandıqdan sonra camiyyəti idarə etmək üçün qanunlar tətbiq olunmağa başlandı. Sizcə, dövlətdə qanunlar olmasa, nə baş verər?*

Dövlətin idarəetmə formaları

Monarxiya	Respublika
İrsən keçən hakimiyyət formasıdır. Bəzi monarxiyalarda parlament monarxın səlahiyyətlərini məhdudlaşdıra bilir.	*Burada ali hakimiyyət müəyyən müddət üçün seçilmiş hakimiyyət orqanlarına məxsusdur.*

Bütün camiyyətlərdə dövlətin müxtəlif idarəetmə formaları var. Dövlət hakimiyyəti müxtəlif üsul və vəsitələrlə həyata keçirilir. Dövlətin idarəetmə formaları dövlətin ali idarəetmə orqanlarının təşkilini, fəaliyyət müddətlərini və səlahiyyətlərini müəyyən edir. Demokratik** dövlət bu idarəetmə formalarından biridir. Demokratik dövlətlərdə xalqa dövlət işlərində iştirak etmək hüququ verilir. Demokratik camiyyət siyasi partiyalar və təşkilatların qarşılıqlı əlaqəsinə əsaslanan hakimiyyət sistemidir.

Demokratik dövlətin prinsipləri bunlardır:
Xalq hakimiyyət mənbəyidir;
Dövlət orqanları seçkilidir;
Dövlət hər kəsin hüquq və azadlıqlarının müdafiəsinə təminat verir.

* Qanun camiyyətdə yaranan ictimai münasibətləri tənzimləyir, insanları hüquq pozuntularından qoruyur, qoyulan qaydalara əməl etməyən şəxslərin cəzalanmasını müəyyən edir.

** Demokratiya yunanca "xalq hakimiyyəti" deməkdir.

Sual və tapşırıqlar:

1. Dövlət idarəetmə formalarını saciyyələndiran cəhətlər hansılardır?
2. Dövlətlərdə hansı idarəetmə forması mövcuddur?
3. Hakimiyyətin bölünməsi prinsipinin nə demək olduğunu izah edin.
4. Konstitusiya haqqında məlumat toplayın.
5. Siz Milli Məclisə təkliflər vermək istəsəniz, bunu necə edərsiniz?
6. Azərbaycanda qanunverici orqanın səlahiyyətlərini açıqlayın.
7. Respublikamızda təhsil sahəsindəki dəyişikliklərdə dövlətin rolu haqqında məlumat toplayın.
8. "Qanunların icrasına nəzarət olunmasa, ölkədə nə baş verər?" mövzusunda esse yazın.

F Mövzuda istifadə olunan terminlərin izahı verilir.

***** Verilmiş sual və tapşırıqların bir qismi öyrənilən bilikləri yoxlamağa, bir qismi isə mövzu ilə bağlı araşdırma aparıb əlavə məlumatlar toplamağa xidmət edir.

MƏNƏVİ ALƏMİM

I bölmə

1. Ünsiyyət mədəniyyəti
2. Davranış normaları
3. Ailə və Vətən qarşısında mənəvi borcumuz
4. Dini ibadətlər və mərasimlər

1 Ünsiyyət mədəniyyəti

I bölmə

Yeni dərs ilinin başlanmasını hamı böyük sevinc hissi ilə qarşılayır. Məktəb öz qapılarını yenidən müəllim və şagirdlərinə açır. Bu zaman hansı hissləri keçirirsiniz?

Ünsiyyət insanlar arasında qarşılıqlı münasibət vasitəsidir. O, informasiyanın mübadiləsi funksiyasını yerinə yetirir. Bu zaman biz özümüzü və ətrafımızdakıları öyrənir, həm də öz əməllərimizi qiymətləndiririk. İnsanın heç kimlə ünsiyyət qurmaması, tənhalığı onun həm əhvali-ruhiyyəsində, həm də xarakterində dəyişiklik yaradır. Ona görə də hər bir insanın ailə üzvləri, dostları, yoldaşları və ətrafındakı digər insanlarla ünsiyyət qurması böyük əhəmiyyət kəsb edir.

? Ünsiyyətin işgüzar, tərbiyəvi, diaqnostik və s. növləri məlumdur. Şəkillərə əsasən ünsiyyətin növlərini müəyyən edin.

XXI əsrdə insanlar daha çox virtual ünsiyyətə üstünlük versə də, canlı ünsiyyət həyatımızın əsas tərkib hissəsidir.

?

Sizin hər biriniz ailədə övlad, mağazada alıcı, nəqliyyatda sərnişin, teatrda tamaşaçı, xaricdə əcnəbi, stadionda azarkeş və s. hesab olunursunuz. Bu zaman ünsiyyətdə olduğunuz insanlarda inciklik hissini yaratmamaq üçün onlarla necə davranırsınız?

Gün ərzində bir çox insanlarla qarşılaşıb onlarla ünsiyyətdə oluruq. İlk baxışda ünsiyyət qurmaq bizə nə qədər sadə görünsə də, bu, o qədər də asan deyil. Ünsiyyətin səmərəli olması üçün bir sıra məqamlara diqqət yetirilməlidir. Ünsiyyət zamanı tərəflərin "yazılmamış qanunlar"a əməl etməməsi xoşagəlməz hallarla nəticələnə bilər.

Ünsiyyətin səmərəli olması üçün ünsiyyət zamanı:

- ✓ həm yaxşı natiq, həm də dinləyici olun;
- ✓ danışanın sözünü kəsməyin, onun fikrinə laqeydlik, diqqətsizlik, hövsələsizlik göstərməyin;
- ✓ göz təması quraraq qarşı tərəfə hörmətinizi nümayiş etdirin;
- ✓ xoş ifadələrdən istifadə edin, qarşı tərəfə aqressiya göstərməyin;
- ✓ fikirlərinizin, mülahizələrinizin ətrafdakılar tərəfindən düzgün anlaşılması üçün jest və mimikalardan istifadə edin;
- ✓ özünüzü qarşınızdakının yerinə qoymağı bacarın.

Deyl Karneginin fikrinə görə, insan bir neçə qaydaya əməl etməklə başqalarında inciklik yaratmadan, onları təhqir etmədən digərlərinə təsir edə bilər.

?

Aşağıdakı qaydaları və onların nə ilə nəticələnəcəyini yoldaşlarınızla müzakirə edin.

- İnsanlara onların ən kiçik uğuru haqqında müsbət fikrinizi bildirin, müvəffəqiyyətini qeyd edin.
- İnsanların səhvlərini birbaşa deyil, dolayısı yolla bildirin.

İnsanların ünsiyyət qura bilməməsinin səbəblərindən biri də emosiyaların idarə olunmamasıdır.

Hər birimizin konfliktdən uzaq olmağımız üçün əməl etməli olduğumuz davranış formaları var. Bunlara aşağıdakıları aid etmək olar:

Uyğunlaşma – *tərəflərdən birinin digər tərəfə güzəştə getməsi;*

Kompromis – *hər iki tərəfin müəyyən dərəcədə razılaşması və bir-birinə güzəştə getməsi;*

Əməkdaşlıq – *hər iki tərəfin maraqlarının təmin olunması;*

Uzaqlaşma – *mübahisəyə fikir verməmək, yaxud çox dərinə getməmək.*

İstəmədiyimiz halda hər hansı bir səbəbdən mübahisə yaranarsa, bu zaman:

- ✓ mübahisə yaradan şəxsə qərəzsiz yanaşmalı, səbirli olmalı, onu qınamadan diqqətlə dinləməli;
- ✓ mübahisənin genişlənməsinə yol verməməli;
- ✓ qarşı tərəfin davranışında onu qane etməyən səbəbləri aydınlaşdırmalı;
- ✓ mübahisənin pozitiv (*müsbət*) həllinə nail olmağa çalışmalı;
- ✓ maksimum dərəcədə sakit və asta danışmalı, səsin tonunda əsəbilik, qəzəb hiss etdirməməli, təhqiredici sözlər işlətməməli;
- ✓ nəzakətli olmalı, ehtiyatsız hərəkət etməməli, şəxsiyyətə hörmətlə yanaşmalıyıq.

?

Mübahisələrin həlli üçün siz hansı yeni qaydalar təklif edə bilərsiniz?

Əsəbiləşdiyiniz zaman:

- ✓ *10-a qədər sayın və sakitləşin;*
- ✓ *dayanın və düşünün;*
- ✓ *nə edə biləcəyinizi fikirləşin;*
- ✓ *düzgün çıxış yolu seçin.*

Unutmayın ki, sadalanan qaydalara əməl etsəniz və yoldaşlarınız arasında bu qaydaların tətbiqi ilə bağlı təbliğat aparsanız, mübahisə yaranmaz.

Hər hansı bir problemin həllində danışmaq qədər dinləmək də böyük rol oynayır. Qarşı tərəfi dinləmək, sözünü kəsməmək, deyilənə laqeyd yanaşmamaq qarşılıqlı anlaşmaya, ünsiyyətin qurulmasına müsbət təsir göstərir.

Sözün də su kimi lətafəti var,
Hər sözü az demək daha xoş olar.
Bir inci saflığı varsa da suda,
Artıq içində dərd verir o da.

Nizami Gəncəvi

Dinləməyi öyrənsən, hətta ən pis danışıqdan da faydalana bilərsən.

Plutarx

? Müdrik kəlamlarda hansı fikirlər ifadə olunmuşdur? Sizcə, təklif olunanlar mübahisələrin qarşısını ala bilərmi?

İstər sinif yoldaşlarınız, dostlarınız, istərsə də ailə üzvləriniz, yaşlı nəslin nümayəndələri ilə danışarkən əvvəlcə onlara verəcəyiniz suallar, deyəcəyiniz sözlər ətrafında düşünün:

Ünsiyyət zamanı qarşı tərəfi duymaq, onun emosional durumuna, davranış tərzinə uyğun ünsiyyət formaları seçmək çox vacibdir. Səsin tembrinə, jestlərə, mimikaya, hətta tərəflər arasındakı məsafəyə belə diqqət etmək lazımdır. Fikrimiz insanlar tərəfindən qəbul edilmirsə, ilk növbədə, fikirləşməliyik ki, biz fikrimizi düzgünmü ifadə etdik?

Ünsiyyətdə olduğumuz insanların dinindən, irqindən, milliyyətindən, ümumiyyətlə, kimliyindən asılı olmayaraq, onlarla səmimi və mehriban davranmalı, mübahisə və münaqişələrə yol verməməliyik. Lakin ünsiyyət mədəniyyətinin formalaşmasına təkcə sadaladıqlarımız təsir göstərmir. Eyni zamanda, oxuduğumuz ədəbi əsərlər, izlədiyimiz kinofilmlər, teatr tamaşaları, televiziya və radio verilişləri ünsiyyətimizin düzgün qurulmasını təmin edir.

!

Sual və tapşırıqlar:

1. Hansı davranış forması mübahisələrin həllini asanlaşdırır?

2. Kərim öz topunu oynamaq üçün dostlarına verməmişdi. Bundan inciyən uşaqlar öz aralarında pul toplayıb top aldılar. Onlar ertəsi gün həyətdə oynayarkən Kərimi oyuna buraxmadılar. Uşaqların ona qarşı etdikləri hərəkəti necə qiymətləndirirsiniz?

3. Cədvəldə təqdim olunan hadisələr zamanı düzgün davranış qaydalarını müəyyənləşdirin.

Hadisələr	Düzgün davranış qaydaları
Danışarkən sözünüzü kəsdilər.	*****
Fikirlərinizə qarşı çıxdılar.	*****

2 Davranış normaları

I bölmə

Əxlaqi keyfiyyət və qaydaları, onların cəmiyyətdə formalaşmasını, rolunu və s. məsələləri etika tədqiq edir. Etika fəlsəfə elminin sahələrindən biri olub, əxlaq haqqında elmdir. Bəs etik qaydalar hansılardır? Biz hansı etik qaydalara əməl etməliyik?

Tarix boyu ailə, məişət, istehsalat və ictimai həyatın bütün sahələrində insanların əxlaqı onların münasibətlərində özünü göstərir. Əxlaqın formalaşması insanı əhatə edən mühitdən asılıdır. Yəni ailə, bağça, məktəb və digər sahələr əxlaqın formalaşmasında mühüm rol oynayır.

Davranış normaları insanlara cəmiyyətdə nəyi, nə vaxt və necə etmək lazım olduğunu izah edən qaydalardır. İnsanın cəmiyyətdə könüllü qəbul etdiyi davranış qaydaları *əxlaq qaydalarıdır*. Dövlət tərəfindən qanun halına salınan, icrası məcburi olan, əməl edilmədikdə isə cəza nəzərdə tutulan normalar isə *hüquq normalarıdır*.

?

Əxlaq və hüquq normalarına zidd olan davranışları seçin:

təhqiramiz sözlərdən istifadə, oğurluq, fiziki güc tətbiq etmək, doğruçuluq, yardımsevərlik, qeybətcillik, böhtan atmaq, terrorçuluq, insan sağlamlığına və ətraf mühitə ziyan vurmaq, girov götürmək, tarixi mədəniyyət abidələrini dağıtmaq.

Əxlaqi norma insana əməl etməli olduğu qaydaları öyrədir, davranışımızın ayrı-ayrı tərəflərini xarakterizə edir.

Bilirsiniz ki, paxıllıq etmək, yalan danışmaq, böhtan atmaq, satqınlıq, ikiüzlülük, qeybət, qorxaqlıq, iradəsizlik, etibarsızlıq, israfçılıq, tənbəllik, bədgümanlıq kimi zərərli keyfiyyətlər cəmiyyət tərəfindən qəbul edilmir.

> Yalan danışmaqdan çəkin. Çünki hər kəs sənin bu xasiyyətini bilərsə, doğru sözünə də inanmaz.
>
> *Azərbaycan mütəfəkkiri Abbasqulu ağa Bakıxanov*

Əməksevərlik, insanpərvərlik, sadəlik, təvazökarlıq, halallıq, işgüzarlıq, dostluq, düzlük, doğruçuluq, vətənpərvərlik və s. isə müsbət keyfiyyətlər hesab olunur. Tarix boyu milli-mənəvi dəyərlərə böyük hörmətlə yanaşan atababalarımız bizi hər zaman əxlaq və davranış qaydalarına əməl etməyə, böyüklərə hörmətlə, kiçiklərə qayğı ilə yanaşmağa çağırıb. Mənəvi münasibətlər formalaşdıqca davranış mədəniyyəti də formalaşmışdır.

Biz hər zaman öz əxlaqımız və davranışımızla ətrafdakılara nümunə olmağa çalışmalı, cəmiyyətin birlik və həmrəylik şəraitində yaşamasını təmin etmək üçün hər yerdə öz hərəkətlərimizi tənzimləməyi bacarmalıyıq. Buna görə də qaydaları bilməyimiz çox vacibdir.

Sizin hansı davranışınız böyüklər tərəfindən qəbul edilməyə bilər? Səbəbi nədə görürsünüz? Bunu necə aradan qaldırmaq mümkündür?

Ailədə davranış qaydaları:

- ✓ *valideynlərinizin, bacı-qardaşlarınızın otağına daxil olmaq istəyərkən qapını döymək;*
- ✓ *ailə üzvlərinin əşyalarına icazəsiz toxunmamaq;*
- ✓ *ailədə özünüzdən kiçik bacı və qardaşlarınızı qorumaq, onların qayğısına qalmaq;*
- ✓ *böyüklər içəri daxil olarkən ayağa qalxmaq, onlara yer göstərmək;*
- ✓ *ailənin sirrini heç vaxt heç kimə verməmək və s.*

Ailədə davranış qaydaları sırasına daha hansı qaydaları əlavə edərdiniz?

Ailə kiçik sosial qrupdur. Ailədəki davranış qaydalarına riayət etmək, valideynlərin sözünə baxmaq, tövsiyələrinə və nəsihətlərinə əməl etmək mənəvi borcumuzdur. Davranış qaydalarına əməl olunarsa, ailədə xoş münasibət, gözəl əhvali-ruhiyyə, əməkdaşlıq, qarşılıqlı hörmət yaranar və nəticədə sağlam ailə həyatı yaşanar.

Məktəbdə davranış qaydaları:

- ✓ *qarşılaşdığınız müəllimlərlə, xidməti işçilərlə, valideynlərlə, yoldaşlarınızla salamlaşmaq;*
- ✓ *dərsdə müəllimlərin dediklərinə əməl etmək, verilən tapşırıqları vaxtında yerinə yetirmək;*
- ✓ *yoldaşlarınızın dərs ləvazimatlarından icazəsiz istifadə etməmək;*
- ✓ *dərsdə yersiz danışıqlarla sinif yoldaşlarınızın fikrini yayındırmamaq, diqqətini özünüzə cəlb etməmək;*
- ✓ *ətrafı zibilləməmək;*
- ✓ *qaydalara əməl etməyən yoldaşlarınızı təmizliyə riayət etməyə cəlb etmək.*

Ailədə və məktəbdə hər kəs öz vəzifəsinin öhdəsindən cəmiyyətin tələbləri baxımından gəlməyə çalışır.

İctimai nəqliyyatda davranış qaydaları:

Avtobusdakı digər sərnişinləri narahat etməmək üçün yüksək səslə danışıb səs-küy salmamalıyıq.

Orta və arxa qapılar sərnişinlərin enməsi üçündür. Bu səbəbdən də qapıların önündə dayanıb onların hərəkətinə mane olmamalıyıq.

Avtobusdakı əlillər və yaşlı insanlar üçün nəzərdə tutulan oturacaqlarda onlara yer verməliyik.





Sərnişin avtobusunda yüksək səslə mahnı dinləyib digərlərini narahat etməməliyik.

Vəzifələrimizi yerinə yetirərkən davranış qaydalarına əməl etsək, yoldaşlıq və dostluq əlaqələrimiz daha da möhkəmlənər.

Cəmiyyətdə davranış qaydaları:

- ✓ *başqalarına etdiyimiz yaxşılıqları onların üzünə vurmamaq;*
- ✓ *başqalarının qüsurlarına rişxənd etməmək;*
- ✓ *danışanın sözünü kəsməmək;*
- ✓ *insanların çox olduğu yerdə bir-birinizi itələməmək;*
- ✓ *başqalarının dərdinə şərik olmaq və s.*

Sual və tapşırıqlar:

1. Müsbət əxlaqi keyfiyyətlər hansılardır?
2. Hansı əxlaqi keyfiyyətlər daha mühüm hesab oluna bilər? Fikrinizi əsaslandırın.
3. Kinoteatrda və gəzintidə əməl olunacaq davranış qaydaları hansılardır? Bu qaydalara əməl etmək nə üçün vacibdir?
4. Metroda və muzeydə hansı davranış qaydalarına əməl olunmalıdır?
5. Davranışların formalaşmasında təqlidçiliyin* rolu böyükdür. Siz davranışınızla hansı əsərin, filmin qəhrəmanına oxşamaq istərdiniz. Nə üçün belə hesab edirsiniz?
6. Düzgün davranış qaydalarını seçin və həmin qaydaların əhəmiyyətini yazın.

Nəqliyyatda kimisə itələmək, dərdə şərik olmaq, qarşısındakını dinləmək, fiziki qüsuru üzə vurmamaq, danışanın sözünü kəsmək, böyüklərə yol vermək, uşaqları incitməmək, münaqişə yaratmaq.

Düzgün davranış qaydaları	Əhəmiyyəti
*****	*****

* Təqlid – başqasının hərəkətini, danışıq tərzini və s. xüsusiyyətlərini təkrar etmə, özünü ona oxşatma

3 Ailə və Vətən qarşısında mənəvi borcumuz

I bölmə

Ailə kiçik dövlətdir və buna görə də möhkəm təməl üzərində qurulmalıdır.

? Bu fikri necə izah edə bilərsiniz?

Əksər ailələrdə uşaqların inkişafı və hüququnu qorumaq üçün valideynlər əllərindən gələni edir, onlara hər bir şərait yaratmağa çalışırlar. Belə ailədə övlad da öz vəzifəsini başa düşür, valideyninin qarşısında mənəvi borcunu yerinə yetirməyə can atır. Bu zaman valideyn və övlad arasındakı müsbət münasibət ailənin problemlərinin birlikdə həll edilməsinə imkan verir.

Uşaqlar bizim gələcəyimizdir. Gələcəyimizi necə tərbiyə edəcəyiksə, ölkəmizin sabahı bundan asılı olacaqdır.

Ümummilli lider
Heydər Əliyev



Uşaq dünyaya gələndən valideynlər ona qayğı göstərirlər. Övladlar da, öz növbəsində, müəyyən yaşa çatdıqda valideynlərinə, digər ailə üzvlərinə qayğını əsirgəməməlidirlər. Hər birimizin mənəvi borcu valideynlərimizə, müəllimlərimizə, ustadlarımıza ehtiram göstərmək, onlara hörmət etməkdir.

? Sxemi izah edin və fikrinizi əsaslandırın.



İnsanın əməyə, mənəvi dəyərlərə, mədəni sərvətlərə münasibəti ailədən başlanır və onun xarakteri formalaşır. Sağlam bir nəslin yetişməsində ailənin böyük rolu var. Ailənin möhkəmliyi valideynlərlə uşaqlar arasında olan münasibətdən asılıdır. Ailədə valideynlərlə övladlar arasında qarşılıqlı anlaşma olmasa, inam və etibar da olmaz.

Valideynlərinizə həmişə hörmətlə yanaşaraq övladlıq borcunuzu yerinə yetirməyə çalışın. Bunun üçün *valideynlərinizin*:

- ✓ *qayğısına qalın, onların xüsusi günlərini unutmayın;*
- ✓ *əhvali-ruhiyyəsinin pis olduğunu gördükdə onu yaxşılaşdırmağa çalışın;*
- ✓ *problemlərinin həllinə qoşulun;*
- ✓ *fikirlərinə hörmətlə yanaşın;*
- ✓ *onların arasında olan söhbəti başqalarına danışmayın;*
- ✓ *nəsihətinə qulaq asın və onları səbirlə dinləməyi bacarın;*
- ✓ *sizdən incikliyinin səbəbini öyrənməyə çalışın;*
- ✓ *Valideynlərinizlə mədəni rəftar edin;*
- ✓ *Valideynlərinizə yalan danışmayın;*
- ✓ *Valideynlərinizlə mübahisə etməyin.*

Unutmayın ki, ailədə münasibətlərin düzgün qurulması, ailə üzvləri arasında hörmət və etibarın olması bizim yüksək əxlaqlı, mənəvi keyfiyyətlərə yiyələnmiş şəxsiyyət kimi formalaşmağımıza təsir göstərir. Bunun üçün davranış qaydalarına əməl etməli, müasir dövrün tələblərinə uyğun bilik və bacarıqlara yiyələnməli, ölkəmizin tarixini, coğrafiyasını, mədəniyyətini, milli adət-ənənələrini bilməli, Vətənimizi sevməliyik. Eyni zamanda, vicdanlı və mübariz olmalıyıq.

"Vətənin haradır?" sualına cavab verərkən dərhal doğulduğumuz məkanın adını çəkirik. Bizim hamımızın bir Vətəni var – Azərbaycan! Tarixə nəzər salsaq, görərik ki, doğma vətənimiz uğrunda Azərbaycanın igid, cəsur oğulları, qeyrətli qızları daim düşmənlə mübarizə aparmış, vətən naminə canlarını qurban ver-

mişlər. Babalarımızın və igidlərimizin bizə əmanət etdiyi Vətənimizin qəhrəmanlıq tarixini Vətən müharibəsində qəhrəmanlar, şəhid oğullar yazdı.

Vətən haqqında danışanda onu “Ana vətən” adlandırırıq. Çünki Vətən də ana kimi doğma və əzizdir. Vətəni sevmək azdır, onu qorumaq, Vətənin mənafeyini öz mənafeyindən üstün tutmaq, yeri gələrsə, canını belə əsirgəməmək gərəkdir.

Torpaqlarımızın azadlığı uğrunda canlarından keçən şəhidlərimiz, qazilərimiz də bu yolu seçdilər. Onlar Vətəni hər şeydən uca tutdular. 44 gün davam edən Vətən müharibəsi qələbəmizlə başa çatdı. Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan ordusu yüksək döyüş hazırlığı göstərərək torpaqlarımızı düşmən tapdağından azad etdi. Tarix yazan qəhrəman oğullarımız əsl döyüş ruhunu, vətənpərvərliyi bütün dünyaya nümayiş etdirdi.

Biz Gültəkin Əsgərova, Əlif Hacıyev, Albert Aqarunov, Məzahir Rüstəmov, Mübariz İbrahimov, Polad Həşimov və digər Milli Qəhrəmanlarımızın xatirələrini əziz tutmalı, onları özümüzə örnək bilməli, layiqli davamçıları olmalıyıq.

? Vətənpərvərlik nədir? Kimi vətənpərvər hesab etmək olar?

ŞƏHİDLƏR ÖLMƏZ, VƏTƏN BÖLÜNMƏZ!

Albert Aqarunov
Milli Qəhrəman

Gültəkin Əsgərova
Milli Qəhrəman

Məzahir Rüstəmov
Milli Qəhrəman

Polad Həşimov
Milli Qəhrəman

Vətənpərvərlik ailədən başlayır, məktəbdə formalaşır, həyatda reallaşır.

Şan-şöhrəti yox, Vətən sevgisini əsas hesab edən Milli Qəhrəmanlarımız canlarını məhz bu yolda qurban veriblər. Qarabağ uğrunda döyüşlərdə iştirak edən könüllülərin göstərdikləri hünər xalqımızda vətənpərvərlik hissinin necə yüksək olduğuna bariz nümunədir.

Vətənimizin şöhrətinin ucalması, torpaqlarımızın bütövlüyü, Azərbaycanın sayılan dövlətlərdən biri olması uğrunda daim mübarizə aparan Ümummilli lider Heydər Əliyev əsl vətənpərvər idi. “Ömrümün qalan hissəsini də xalqıma bağışlayıram”, – deyən Ulu öndər yeni, müstəqil Azərbaycanın qurucusu oldu. Onun vaxtilə yürütdüyü siyasəti uğurla davam etdirən Ali Baş Komandanımızın apardığı uğurlu siyasət, əsgər və zabitlərimizin hünəri, xalqımızın iradəsi, qəhrəman oğullarımızın şücaəti dünyanı heyran qoydu.

Sual və tapşırıqlar:

1. Valideynləriniz qarşısında mənəvi borcunuz nədir?

2. Valideynlərlə övladlar arasında qarşılıqlı inam dedikdə nə nəzərdə tutulur?

3. Aşağıdakı kiçik parçanı oxuyub müzakirə edin:

Qonşu padşah Hun hökmdarı Metedən ən yaxşı atını istədi. Əgər verməsə, müharibə edəcəyini dedi. Mete atını verdi. Hökmdar onun oğlunu istədi. Mete müharibə olmasın deyə onu da verdi. Ancaq ondan sərhəddəki yararsız torpağı istəyəndə Mete qəzəblənərək dedi: "At və oğul mənim idi, qan tökülməməsi üçün onları verdim. Lakin torpaq mənim deyil, torpaq xalqındır. Onun üstündə igidlərin qanı axıb. Biz müharibə edəcəyik. Çünki torpaqdan pay olmaz".

4. Məktəbdə vətənpərvərliyinizi necə nümayiş etdirə bilərsiniz? Bunun həlli yollarını, üzərinizə düşən vəzifələri müəyyənləşdirin.

5. Musiqiçi, rəssam, alim, yazıçı və əsgərlər vətən qarşısında mənəvi borclarını necə yerinə yetirirlər?

6. Şamil Mahmudbəyovun "Skripkanın sərgüzəşti" filmini izləyin. Filmin qəhrəmanları olan uşaqların böyüklərdən geri qalmayan cəsarətli hərəkətlərini yoldaşlarınızla müzakirə edin.

7. Şuşa şəhərinin işğaldan azad olunması, müharibənin bizim xeyrimizə qələbə ilə qurtarması xəbərini eşidərkən keçirdiyiniz hissləri əks etdirən esse yazın.

8. Vətən müharibəsində "Cəsur döyüşçü", "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif olunan qəhrəmanlardan bir neçəsi haqqında məlumat toplayın.

9. 20 Yanvar şəhidləri vətən qarşısındakı mənəvi borclarını necə yerinə yetirdilər? Mövzu ilə bağlı divar qəzeti hazırlayın.

4 Dini ibadətlər və mərasimlər

I bölmə

Azərbaycanın tarixi inkişafının xüsusiyyətləri, coğrafi mövqeyi, əhalisinin çoxmillətli olması burada müxtəlif dinlərin mövcudluğuna şərait yaratmışdır. Ölkəmizdə ayrı-ayrı dövrlərdə bütpərəstlik, zərdüştilik, iudaizm, xristianlıq, islam və digər dinlər yayılmışdır.

Sizcə, səmavi dinlərin hansı ibadət və mərasimləri bir-birindən fərqlənir?



"Qurani-Kərim"



"İncil"



"Tövrat"

Hər bir dinin özünəməxsus müəyyən ibadət və mərasimləri var. Bildiyimiz kimi, islamda namaz hər bir müsəlmana vacib buyurulmuş ibadətdir. İslam dininə görə, namaz vasitəsilə insan Yaradana öz sədaqətini nümayiş etdirərək ona yaxınlaşır, saflaşır və ülviləşir.

Müsəlmanlar gündə 5 dəfə namaz qılmalıdırlar.

Cümə müsəlmanlar üçün müqəddəs gün sayılır.

Ramazan və Qurban bayramları müsəlmanların dini bayramlarıdır. Bu bayramlarda müsəlmanlar bir sıra mərasimlər keçirirlər.

İnsanlar Qurban bayramı günü səhər tezdən məscidə toplaşır, bayram namazı qılırlar. Sonra isə niyyət edənlər qurbanlıq heyvan kəsirlər. Adətən, kəsilən heyvan üç hissəyə ayrılır. Bir hissəsi qohum-qonşuya, bir hissəsi imkansızlara paylanır, qalan hissəsi isə qonaqlar üçün bişirilir. Hər bir qurban kəsən adam bütün malının, mülkünün, ruzisinin Allahdan olduğunu və bütün var-dövlətini Allah yolunda sərf etməyə hazır olduğunu bildirir. Həcc ziyarəti zamanı insanların kəsdiyi qurbanlar isə, adətən, ehtiyac içində olan dövlətlərin əhalisinə göndərilir.

Ramazan bayramı müsəlmanların əsas bayramlarından biri hesab olunur. Bayram Ramazan ayının sonuncu gecəsi Ayın görünməsi ilə müəyyən edilir. Bayrama qədər müsəlmanlar bir ay müddətində oruc tuturlar. Bu zaman səhərdən gün batana kimi qida və maye qəbul edilmir. Bayram günü oruc tutulmur, camaat məscidə toplaşır, bayram namazı qılınır. Namazdan sonra müxtəlif yeməklər hazırlanır və hər bir evdə süfrə açılır. Ramazan bayramı günü halva və fətir bişirilib paylanılır. Orucluq zamanı müsəlmanlar ehtiyacı olanlara pul və ərzaq yardımı da edirlər.

Məscid

Kilsə

Sinaqoq

Şənbə yəhudilər üçün müqəddəs gün sayılır.

Şənbə sevinc və istirahət günüdür. Həmin gün yəhudilər dincəlir, "Tövrat"ı öyrənmək və bayram süfrəsi hazırlamaqla məşğul olurlar. Yəhudilər üçün şənbə istirahəti təqvimlə cümə gününün axşamı Günəşin batması ilə başlayır. Evlərdə şamlar yandırılır və dualar oxunur. Ailə üzvlərinin və dəvət edilmiş qonaqların əyləşdiyi bayram süfrəsində mütləq xeyir-dua verilmiş məhsullar: şərab və iki ədəd xüsusi bayram çörəyi (*xala**) olmalıdır. Adətən, şənbə günü sinaqoqu da ziyarət edirlər. Dualar oxunur, ətrafa xoş ətirlər səpilir və sonda xüsusi şam yandırılaraq Xavdal mərasimi ilə bitir. Bir çox mömin yəhudilər mərasim zamanı ayaqqabı geyinmirlər.

Yəhudi bayramı olan Pesaxda (Pasxa) bütün dünyanın yəhudiləri Misir əsarətindən azad olunduqları günü qeyd edirlər. Bayram günlərində yalnız duzsuz və quru çörək (*matsu*) yeməyə icazə verilir. Pasxanın başlanmasının ilk iki günündən birində ailə üzvləri qonaqlarla birgə xüsusi pasxa süfrəsi arxasında əyləşir. Ev sahibi Misirdən gedişin tarixçəsini danışır. O qeyd edir ki, yəhudilər tək Allahı tanımayan Misir fironunun əsarətindən qurtarmaq üçün oranı Musa peyğəmbərlə birlikdə tərk ediblər. Süfrədə əyləşənlər dua edir və dörd qədəh şərab içirlər. Pasxa günlərində sinaqoqda bayram ibadətləri də keçirilir.

* https://ru.wikipedia.org/wiki/%D0%A5%D0%B0%D0%BB%D0%B0

Din insanın dünyanı dərk etmək istəyindən yaranmış dünyagörüşü formasıdır.

Bazar günü xristianlar üçün müqəddəs sayılır.

Pasxa həm də xristianların dini bayramıdır. II əsrdən indiyədək bu bayram bütün kilsələrdə keçirilir. Pasxa bayramında xristianlar İsa Məsihin dirilmə gününü qeyd edirlər.

Xristianların Pasxa bayramı ilə bağlı müxtəlif adət-ənənələri var. Onlar Pasxadan əvvəl 40 gün oruc tuturlar. Orucun əsas şərtləri heyvani qida məhsullarından və əyləncələrdən imtina etməkdir.

Pravoslav və katolik kilsələrində bayramdan əvvəlki şənbə gününün gecəsində, adətən, gecə duası oxunur. Xüsusi ayinlər, mərasimlər keçirilir. Bütün xristianlar Pasxa bayramı münasibətilə bir-birlərini təbrik edirlər.

Müxtəlif dinlərdəki ibadətlər və mərasimlər fərqli olsa da, bütün səmavi dinlərin oxşar cəhətləri də var. Allahın tək olmasını qəbul etmək, yalnız Allahdan imdad istəmək səmavi dinlərin ümumi cəhətidir.

!

Sual və tapşırıqlar:

1. Müsəlmanlar hansı dini mərasimləri qeyd edirlər? Bu mərasimlər necə həyata keçirilir?
2. Yəhudilər hansı dini mərasimləri qeyd edirlər? Bu mərasimlər necə həyata keçirilir?
3. Xristianlar hansı dini mərasimləri qeyd edirlər? Bu mərasimlər necə həyata keçirilir?
4. Xristianların Pasxa bayramı ilə yəhudilərin Pesax bayramını Eyler-Venn diaqramına əsasən müqayisə edin.



5. İsraildə eyni binanın bir qapısından məscidə, digər qapısından sinaqoqa giriş var. Sizcə, bunu necə izah etmək olar?
6. Dinlərin xüsusiyyətlərinə aid cədvəli tamamlayın.

Din	Peyğəmbər	İbadət yeri	Müqəddəs gün	Dini mərasim
*****	*****	*****	*****	*****

7. Müxtəlif dinlərə məxsus bayramların oxşar cəhətlərinə aid esse yazın.

DÖVLƏTİMƏ ARXALANIRAM

II bölmə

5. Dövlətdə idarəçilik
6. Cəmiyyətin idarə olunmasında dövlətin funksiyaları
7. Hüquqlarımızın qorunması
8. İqtisadi inkişaf

5 Dövlətdə idarəçilik

II bölmə

Siz dövlətin yaranması haqqında məlumatlısınız. Dövlət yarandıqdan sonra cəmiyyəti idarə etmək üçün qanunlar tətbiq olunmağa başlandı. Sizcə, dövlətdə qanunlar olmasa, nə baş verər?*

Dövlətin idarəetmə formaları

Monarxiya	***Respublika***
irsən keçən hakimiyyət formasıdır. Bəzi monarxiyalarda parlament monarxın səlahiyyətlərini məhdudlaşdıra bilir.	*Burada ali hakimiyyət müəyyən müddət üçün seçilmiş hakimiyyət orqanlarına məxsusdur.*

Bütün cəmiyyətlərdə dövlətin müxtəlif idarəetmə formaları var. Dövlət hakimiyyəti müxtəlif üsul və vasitələrlə həyata keçirilir. Dövlətin idarəetmə formaları dövlətin ali idarəetmə orqanlarının təşkilini, fəaliyyət müddətlərini və səlahiyyətlərini müəyyən edir. Demokratik** dövlət bu idarəetmə formalarından biridir. Demokratik dövlətlərdə xalqa dövlət işlərində iştirak etmək hüququ verilir. Demokratik cəmiyyət siyasi partiyalar və təşkilatların qarşılıqlı əlaqəsinə əsaslanan hakimiyyət sistemidir.

Demokratik dövlətin prinsipləri bunlardır:

Xalq hakimiyyət mənbəyidir;
Dövlət orqanları seçkilidir;
Dövlət hər kəsin hüquq və azadlıqlarının müdafiəsinə təminat verir.

* Qanun cəmiyyətdə yaranan ictimai münasibətləri tənzimləyir, insanları hüquq pozuntusundan qoruyur, qoyulan qaydalara əməl etməyən şəxslərin cəzalanmasını müəyyən edir.

** Demokratiya yunanca “xalq hakimiyyəti” deməkdir.

Dövlət hakimiyyətinin bölünməsi

- ✓ *Qanunvericilik hakimiyyəti*
- ✓ *İcra hakimiyyəti*
- ✓ *Məhkəmə hakimiyyəti*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev

Konstitusiyamıza əsasən, Azərbaycan dövləti demokratik respublikadır. Dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır.

Konstitusiyamızın 7-ci maddəsinin 3-cü hissəsində göstərilir ki, respublikamızda qanunvericilik hakimiyyətini Milli Məclis həyata keçirir. Ölkəmizdə qanunlar yalnız seçki yolu ilə formalaşan Milli Məclis tərəfindən qəbul olunur.

Milli Məclisin bir çox səlahiyyətləri var. Qanunvericilik hakimiyyəti qurumunda müxtəlif komitələr fəaliyyət göstərir. Azərbaycan Respublikasında hər bir vətəndaş seçdiyi deputat vasitəsilə Milli Məclisə təkliflər verə bilər.

Ölkəmizdə ***İcra Hakimiyyəti*** Azərbaycan Respublikasının Prezidentinə mənsubdur. Prezident icra səlahiyyətlərini həyata keçirmək üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetini yaradır. Nazirlər Kabineti təhsil, rabitə, informasiya, səhiyyə, sosial təminat, mədəniyyət və s. sahələrlə bağlı məsələləri öz səlahiyyəti çərçivəsində həll edir.

Ölkə Prezidenti Konstitusiyadan irəli gələn bəzi məsələlərin həlli üçün fərman və sərəncamlar verir.

Milli Məclis:

- ✓ *qanunverici hakimiyyətdir;*
- ✓ *Azərbaycan xalqının maraqlarını və iradəsini ifadə edir;*
- ✓ *fəaliyyətində müstəqildir.*

Prezident:

- ✓ *Ali Baş Komandandır;*
- ✓ *dövləti təmsil edir;*
- ✓ *icra başçılarını vəzifəyə təyin və vəzifədən azad edir;*
- ✓ *Milli Məclisin razılığı ilə Azərbaycan Respublikasının Baş nazirini, Baş prokurorunu və digər vəzifəli şəxsləri təyin edir və vəzifəsindən azad edir;*
- ✓ *qanunları imzalayır;*
- ✓ *əfv etmək, təltif etmək, çağırışçıları orduya səfərbər etmək, tərxis etmək və s. səlahiyyətlərə malikdir.*

Azərbaycan Respublikası Prezident Administrasiyasının inzibati binası

> Dövlət iki halda sarsıla bilər: günahkar cəzasız qalanda və günahsıza cəza veriləndə.
>
> *Ümummilli lider Heydər Əliyev*

Məhkəmə hakimiyyəti ölkəmizdə ədalət mühakiməsini həyata keçirən yeganə hakimiyyətdir. Məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi, Azərbaycan Respublikasının Ali Məhkəməsi, Azərbaycan Respublikasının Apellyasiya məhkəmələri, Azərbaycan Respublikasının ümumi məhkəmələri və digər ixtisaslaşdırılmış məhkəmələr həyata keçirir. Məhkəmələr insanların hüquq və azadlıqlarını qoruyur.

Sual və tapşırıqlar:

1. Dövlət idarəetmə formalarını səciyyələndirən cəhətlər hansılardır?
2. Dövlətlərdə hansı idarəetmə formaları mövcuddur?
3. Hakimiyyətin bölünməsi prinsipinin nə demək olduğunu izah edin.
4. Konstitusiya haqqında məlumat toplayın.
5. Siz Milli Məclisə təkliflər vermək istəsəniz, bunu necə edərsiniz?
6. Azərbaycanda qanunverici orqanın səlahiyyətlərini açıqlayın.
7. Respublikamızda təhsil sahəsindəki dəyişikliklərdə dövlətin rolu haqqında məlumat toplayın.
8. “Qanunların icrasına nəzarət olunmasa, ölkədə nə baş verər?” mövzusunda esse yazın.

6 Cəmiyyətin idarə olunmasında dövlətin funksiyaları

II bölmə

Məlumdur ki, dövlət cəmiyyətin həyatında mühüm rol oynayır. Gəlin araşdıraq: dövləti digər siyasi təşkilatlardan fərqləndirən cəhətlər hansılardır?

> Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır.
>
> *Ümummilli lider Heydər Əliyev*

Dövlətin idarə olunmasında müxtəlif insanlar iştirak edir. Onlar dövlətin idarə olunmasını dövlət orqanları, müəssisə və təşkilatlar vasitəsilə həyata keçirirlər.

DÖVLƏT:

- *cəmiyyətin bütövlüyünü təmin edir;*
- *ərazi bölgüsü aparır;*
- *əhalinin əlaqələrini təmin edir;*
- *qanunlar qəbul edir;*
- *vətəndaşlıq verir və vətəndaşlığı ləğv edir;*
- *vergi və pul siyasəti aparır və s.*

? Şagirdlərin muzeylərə səyahətinin təşkilinin hansı qurumlar tərəfindən həyata keçirildiyini yoldaşlarınızla müzakirə edin.

Dövlətin fəaliyyət istiqamətləri onun funksiyaları adlanır. Bu funksiyalar iki qrupa bölünür:

Dövlətin funksiyaları

Daxili funksiyalar:

- ✓ *iqtisadi funksiya*
- ✓ *sosial funksiya*
- ✓ *hüquqi funksiya*
- ✓ *siyasi funksiya*
- ✓ *təhsil funksiyası*
- ✓ *mədəni tərbiyə funksiyası*
- ✓ *ekoloji funksiya*

Xarici funksiyalar:

- ✓ *digər dövlətlərlə əlaqə funksiyası*
- ✓ *ölkənin müdafiəsi funksiyası*

? Şəkillərdə dövlətin hansı funksiyalarının təsvir edildiyini yoldaşlarınızla müzakirə edin.

- ***İqtisadi funksiya*** *dövlət ölkədə iqtisadi prosesləri təşkil edir və tənzimləyir. Məsələn; dövlət büdcəsini müəyyənləşdirir, vergi siyasətini həyata keçirir, sahibkarlıq fəaliyyətinin inkişafına şərait yaradır və s.*
- ***Sosial funksiya*** *əməkqabiliyyətli insanların işlə təmin olunmasına şərait yaradır. Yeni iş yerləri açır, əməkhaqlarını, təqaüdləri, pensiyaları artırır və s.*
- ***Hüquqi funksiya*** *insanların hüquqlarını qoruyur, hüquq normalarını müəyyən edir.*
- ***Siyasi funksiya*** *əhalinin arzu və istəklərinə cavab verən siyasi xətti işləyib hazırlayır.*
- ***Təhsil funksiyası*** *təhsil almaq üçün şərait yaradır.*
- ***Mədəni tərbiyə funksiyası*** *əhalinin mədəni tələbatlarının ödənilməsi, dünya mədəniyyəti ilə tanışlıq məqsədilə tədbirlər həyata keçirir.*
- ***Ekoloji funksiya*** *təbii ehtiyatlardan düzgün istifadənin müəyyənləşdirilməsini və insanların sağlam ətraf mühitdə yaşamasının təmin olunmasını həyata keçirir.*
- ***Digər dövlətlərlə əlaqə funksiyası*** *bir çox ölkələrlə mədəni, siyasi və iqtisadi əlaqələr qurur.*
- ***Ölkənin müdafiəsi funksiyası*** *ölkənin ərazi bütövlüyünü qoruyur, müdafiə qüdrətini artırır və s.*

!

Sual və tapşırıqlar:

1. Respublikamızda son illərdə təhsillə bağlı görülən işlərin siyahısını tərtib edin.

2. Dövlətin çoxuşaqlı ailələrə kömək etməsi onun hansı funksiyasına aiddir? Dövlət daha kimlərə yardım edir? Məlumat toplayın.

3. Ölkəmizdə dünya mədəniyyəti ilə əlaqədar keçirilən tədbirlərə aid məlumat toplayın.

4. Ölkəmizdə qaçqın və məcburi köçkün ailələrinə göstərilən dövlət qayğısı haqqında məlumat toplayın.

5. Cədvəl qurub göstərilənlərin dövlətin hansı funksiyalarına aid olduğunu qruplaşdırın: *sərhədləri və daxili asayişi qoruyur, əhalinin dünya mədəniyyəti ilə tanış olması üçün tədbirlər təşkil edir, ticarət əlaqələri yaradır, hüquq normaları müəyyən edir, yeni bağça və məktəblər açır.*

6. Azərbaycanda bir çox muzeylər var. Bu muzeylərdən biri uzun illər düşmən tapdağı altında qalmış Ağdamda yerləşən, dünyada 2-ci hesab edilən Ağdam Çörək Muzeyi idi. Həmin muzey haqqında məlumat toplayın və mədəni irsimizin qorunmasının dövlətin hansı funksiyasına aid olduğunu qeyd edin.

7. Vətən müharibəsi şəhidləri və qazilərinə, onların ailələrinə göstərilən dövlət qayğısı haqqında esse yazın.

7 Hüquqlarımızın qorunması

II bölmə

Dövlətin funksiyalarından biri hüquqi funksiyadır. Siz beşinci sinifdə insanların hüquqlarını müdafiə edən təşkilatlar haqqında biliklər əldə etmişsiniz. Bəs bu təşkilatların fəaliyyəti haqqında nə bilirsiniz?

İnsan təbiətin təkrarolunmaz varlığıdır. Yaxşı yaşamaq hər bir insanın haqqıdır. O bunun üçün mübarizə aparır, oxuyur və işləyir. İnsan həm də daim öz ləyaqətini* qorumağa borcludur. Dövlət də, öz növbəsində, vətəndaşlarının mənafeyinin keşiyində durur.

İnsan ləyaqətinə hörmət hər vaxt eyni olmamışdır. Əvvəlcə ləyaqət haqqında təsəvvürlər formalaşmış, sonralar isə insanın öz ləyaqətini müdafiə etməsinin ən mükəmməl mexanizmi – insan hüquqları yaranmışdır. İnsan hüquqlarına əməl olunması sahəsində başlıca məsuliyyətin dövlət üzərinə düşməsi qanunauyğundur, çünki hər bir insanın hüquq və azadlığını qorumaq bilavasitə dövlətə məxsusdur. Ölkəmizdə vətəndaşların hüquq və azadlıqları Azərbaycan Respublikasının Konstitusiyası ilə qorunur.

Əsas insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikası Konstitusiyasının 24–71-ci maddələrində sadalanır.

Azərbaycan Respublikasının Konstitusiyasının 52–53-cü maddələri Azərbaycan Respublikası vətəndaşlarının hüquqlarına və onlara verilən hüquqi təminatlara həsr olunub. Vətəndaş qanunla müəyyən olunmuş hüquqlardan istifadə edir və dövlət qarşısında vəzifə borcunu yerinə yetirir. Hər bir vətəndaş Azərbaycan dövlətinə və onun qanunlarına tabedir.

Konstitusiyamızın 71-ci maddəsinə əsasən, insan və vətəndaş hüquqlarının və azadlıqlarının pozulması ilə əlaqədar mübahisələri məhkəmələr həll edir.

Ümumiyyətlə, Konstitusiyamızın 158 maddəsinin 40-dan çoxu insan hüquq və azadlığına həsr edilmişdir. Vətəndaşların hüquqları onların cinsindən, mənşəyindən, irqindən, dilindən, dini inancından asılı olmayaraq qorunur.

Bununla yanaşı, digər demokratik ölkələrdə olduğu kimi, 2002-ci ildən respublikamızda da İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman**) fəaliyyət göstərir.

Ombudsman öz mahiyyətinə görə dövlətin qanunvericilik, icra və məhkəmə hakimiyyətinə aid olmayan orqanıdır. Qanuna əsasən, o, tam müstəqildir, yalnız Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına tabedir.

---

* Ləyaqət hər bir insanın öz şəxsiyyətinə hörməti deməkdir.

** “Ombudsman” sözü İsveç dilindəki “ombuds” – “aparıcı”, “man” – “şəxs” sözlərinin birləşməsindən yaranmışdır. Mənası “insan hüquqlarının təmin olunmasına nəzarət edən şəxs” deməkdir.

10 dekabr – İnsan Hüquqları Günü

Onun əsas işi insanların və vətəndaşların ərizə və şikayətlərini araşdırmaqdır.

İnsan hüquqlarının qorunması ilə müxtəlif beynəlxalq təşkilatlar da məşğul olur. Siz BMT-nin və ATƏT-in fəaliyyəti ilə tanış olmuşsunuz. BMT-nin xüsusi komissiyasının hazırladığı "İnsan hüquqları haqqında Ümumi Bəyannamə"nin* qəbul edildiyi gün – 10 dekabr İnsan Hüquqları Günü kimi qeyd olunur. Bu bəyannamə 1948-ci ildə qəbul edildikdən sonra 1950-ci ildə bütün dünya dövlətlərində onu qeyd etmək tövsiyə olunmuşdur.

> Dinindən, dilindən, irqindən asılı olmayaraq, Azərbaycanın bütün vətəndaşları eyni hüquqlara malikdirlər.
>
> *Ümummilli lider Heydər Əliyev*

BMT insanların hüquqlarını qorumaq üçün beynəlxalq səviyyədə müxtəlif istiqamətlərə aid sənədlər hazırlamışdır.

Bilirsiniz ki, UNICEF (*Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu*) BMT-nin uşaqların hüquqlarını müdafiə edən təşkilatıdır. Qadın hüquqlarının pozulmasının qarşısını almaq üçün isə UNIFEM (*Birləşmiş Millətlər Təşkilatının Qadınlar Fondu*) yaratmış və sonradan UN WOMEN təşkilatına birləşdirilmişdir. Bu təşkilatın əsas fəaliyyəti kişi və qadın bərabərliyini təmin etməkdir.

---

* "Bəyannamə" sözü fars dilindəki "namə" və ərəb dilindəki "bəyan" sözlərinin birləşməsindən yaranıb. Mənası "müəyyən prinsiplərin bəyan edildiyi beynəlxalq hüquqi sənəd" deməkdir.

> “İnsan hüququ hər bir insanın hüququdur, eyni zamanda, hər bir xalqın hüququdur”.
>
> *Ümummilli lider Heydər Əliyev*

18 iyun Milli İnsan Hüquqları Günüdür.

Qadın və kişilər arasında sosial bərabərlik gender bərabərliyi kimi qəbul olunur. “Gender” anlayışı indi hamıya tanışdır. Gender bərabərliyinin bəzən qadın hüquqlarının qorunması kimi başa düşülməsi səhvdir. Burada məqsəd cəmiyyətdə qadın və kişilər arasında mövcud olan fərqlərin aradan qaldırılmasıdır.

ATƏT və ondan əvvəl yaranan Avropa Şurasının əsas prinsiplərinə insan hüquqlarının qorunması, qanunların aliliyi aiddir.

? “İnsan hüquqları alına bilməz, fövqəladə hallarda bəziləri məhdudlaşdırıla bilər” fikrini yoldaşlarınızla müzakirə edin.

İkinci Dünya müharibəsindən sonra qaçqın və ölkədaxili köçkünlərlə bağlı problemləri aradan qaldırmaq və onların hüquqlarının pozulmasının qarşısını almaq üçün 1945-ci ildə BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı yaradıldı. Bu qurum dünya əhalisinin sülh və əmin-amanlıq şəraitində yaşamasına çalışsa da, hazırda dünyanın bir çox ölkələrində, eləcə də respublikamızda milyondan çox qaçqın və məcburi köçkün var.

Ölkəmizdə ***qaçqınlar*** 1988-ci ildə Ermənistandan qovularaq ata-baba yurdlarını məcburi tərk etmişlər. Torpaqlarımızın Ermənistan tərəfindən zəbt edilməsi nəticəsində Dağlıq Qarabağda və ətraf bölgələrdə kütləvi şəkildə insanların hüquq və azadlıqları da pozulub. Ölkəmizdə əhalinin bir qismi öz yaşayış yerlərini məcburi tərk edərək ***köçkün*** adlanmışdır.

Dövlətimiz qaçqın və məcburi köçkünlərə hərtərəfli yardım edir. Onların hüquqlarını qorumaq və problemlərini həll

Konstitusiyadakı bəzi insan hüquqları və azadlıqları

İnsan azadlıqları:

- ✓ *fikir və söz azadlığı*
- ✓ *vicdan azadlığı*
- ✓ *sərbəst toplaşmaq azadlığı*
- ✓ *məlumat azadlığı*
- ✓ *yaradıcılıq azadlığı*

İnsan hüquqları:

- ✓ *təhsil hüququ*
- ✓ *bərabərlik hüququ*
- ✓ *yaşamaq hüququ*
- ✓ *azadlıq hüququ*
- ✓ *mülkiyyət hüququ*
- ✓ *nikah hüququ*
- ✓ *əmək hüququ*
- ✓ *istirahət hüququ*
- ✓ *şəxsi toxunulmazlıq hüququ*

etmək üçün Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi yaradılıb.

Biz heç bir zaman mənfur düşmənimiz olan erməni millətçiləri və onları dəstəkləyənlər tərəfindən fitnəkarlıq nəticəsində hüquqları pozulan minlərlə soydaşımızı unutmadıq. İgid oğullarımızın uğrunda vuruşaraq şəhid olduğu Vətən torpaqları düşmən tapdağı altında necə qala bilərdi?! Xocalıda törədilən soyqırımı necə unutmaq olardı?! Nəhayət, 2020-ci il 27 sentyabr – 10 noyabr tarixlərində 44 günlük zəfər yürüşündən sonra rəşadətli ordumuz torpaqlarımızı düşmən tapdağından azad edərək Vətənimizin sərhədlərini bərpa etməyə nail oldu. Ölkə Prezidenti Ali Baş Komandan İlham Əliyevin "Qarabağ Azərbaycandır!" şüarı ilə mücadiləyə qoşulan hər kəs: istər ordumuz, istərsə də arxa cəbhədə çalışan hər bir vətəndaş şanlı qələbəyə imza atdı. Hazırda məcburi köçkünlərin ata-baba yurdlarına qayıtması üçün dövlət qurumları tərəfindən müxtəlif tədbirlər həyata keçirilir.

Sual və tapşırıqlar:

1. BMT-nin "Uşaq Hüquqları haqqında Konvensiya"sı ilə tanış olun, sağlamlıq və təhsil hüququnun qorunmasına aid olan bəndləri seçib yazın.
2. BMT-nin "Uşaq Hüquqları haqqında Konvensiya"sına daha hansı hüquqlarınızı daxil edərdiniz?
3. İnsan hüquqlarının qorunması ölkəmizdə hansı sənəddə öz əksini tapır?
4. Azərbaycanda Qızlar məktəbinin açılması ilə qadınların hansı hüquqları nəzərə alınmışdır?

Araşdırın
Aşağıdakı mövzular haqqında məlumat toplayın

- Uşaq doğulduqda, ilk növbədə, onun hansı hüquqları yaranır? Bununla bağlı BMT-nin "Uşaq Hüquqları haqqında Konvensiya"sında hansı bəndlər var?
- Ölkəmizdə Ombudsmanın fəaliyyəti;
- Respublikamızda xüsusi qayğıya ehtiyacı olan uşaqların hüquqlarının qorunması;
- Qadın hüquqlarının pozulmasının qarşısını almaq üçün fəaliyyət göstərən beynəlxalq təşkilatlar;
- Sağlamlığın qorunması hüququ ilə bağlı respublikada görülən işlər.

8 İqtisadi inkişaf

II bölmə

Ölkəmizin iqtisadi inkişafında neftin və qazın rolu böyükdür. Neftdən hansı məhsullar istehsal olunur?

İnsan çox qədimdən yemək, geyinmək və təhlükələrdən qorunmaq haqqında fikirləşməli olmuşdur. Qədim insanlar təbiətin bəxş etdiyi məhsullarla: yabanı bitkilər, vəhşi heyvanlarla qidalanmış, müxtəlif əmək və ovçuluq alətləri hazırlamışlar. Sonralar isə heyvandarlıq və əkinçiliklə məşğul olmuşlar. Zaman keçdikcə onlar yeraltı sərvətlərdən də istifadə etmişlər.

? Ölkə iqtisadiyyatının inkişafında neftin və qazın nə kimi rolu vardır?

> Biz bazar iqtisadiyyatı yolu ilə getməliyik.
>
> *Ümummilli lider Heydər Əliyev*

İnsanın fəaliyyət sahələri genişləndikcə iqtisadiyyat anlayışı formalaşmağa başlayıb. Deməli, bəşər tarixi ilə birgə yaranan iqtisadiyyat insan fəaliyyətinin ən mühüm sahəsidir. İqtisadiyyatsız cəmiyyət təsəvvür etmək mümkün deyil.

Hər bir dövlətin qüdrəti onun iqtisadi gücü ilə ölçülür. İqtisadi cəhətdən inkişaf etmiş dövlətlərin əhalisi firavan yaşayır, onların ehtiyacları ödənilir. İnsanlar öz ehtiyaclarını ödəmək üçün daim müxtəlif qida məhsulları, geyim, məişət əşyaları və mənzil üçün lazım olan avadanlıqlar istehsal edirlər.

Cəmiyyət inkişaf etdikcə ictimai təsərrüfat formaları da bir-birini əvəz etmişdir. Bu təsərrüfat formalarına *natural təsərrüfat, əmtəə təsərrüfatı və bazar iqtisadiyyatı* aiddir. Müəyyən bir dövrdə insanlar yalnız öz tələbatlarını ödəmək məqsədilə məhsul istehsal edirdilər ki, bu, natural təsərrüfat forması adlanırdı.

Zaman keçdikcə əmtəə təsərrüfat forması natural təsərrüfat formasını əvəz etmişdir. İnsanlar öz tələbatlarından daha artıq məhsul istehsal etməyə başlamışlar.

Natural və əmtəə təsərrüfat formalarından sonra yaranmış bazar iqtisadiyyatı müasir dövrədək gəlib çıxmışdır.

İnkişaf etmiş ölkələrdə olduğu kimi, ölkəmizdə də bazar iqtisadiyyatı insanların sərbəst əmək fəaliyyəti göstərmələrinə şərait yaradır. Bu isə insana öz qabiliyyətini, biliyini və təcrübəsini daim təkmilləşdirməyə imkan verir.

Bazar əlaqələri bütün təsərrüfat sahələrini əhatə edir. İstehsal olunmuş məhsul bazara çıxarılır və ilkin qiymət onun maya dəyərinə görə qoyulur. Bazarda satış qiyməti isə insanların tələb və təkliflərinə əsasən müəyyən edilir.

Tələb alıcıların müəyyən qiymətə almağa hazır olduqları məhsulun ifadə formasıdır.

Tələbin artması və azalması bir çox səbəblərdən asılıdır. Ən başlıca səbəb qiymətdir. Əgər məhsulun qiyməti aşağıdırsa, tələbat daha çox ödənilir. Qiymət artırsa, tələb aşağı düşür. Tələb həm də alıcıların istək və imkanından asılıdır. Məsələn, XX əsrin 80-ci illərində idman ayaqqabılarına tələbin artmasının səbəbi belə ayaqqabıların dəbə çevrilməsi olmuşdur.

?

Sizcə, idman paltarı almaq istəyən Tunar və Raul, ilk növbədə, nəyi nəzərə almalıdır? Niyə?

İqtisadiyyat inkişaf etdikcə insanların gəlirləri artır. Bu isə insanların ehtiyaclarının ödənilməsinə təsir göstərir. Məsələn, inkişaf etmiş dövlətlərdə əhali kompüterləri, məişət avadanlıqlarını hər 3–4 ildən bir dəyişir. Bəzi dövlətlərdə isə bu avadanlıqlardan daha uzun müddət istifadə edilir.

Hər hansı bir məhsula tələb artdıqca istehsalçılar onun istehsalını artırırlar. Bu isə bazarda təklifin artmasına gətirib çıxarır.

Təklif istehsalçıların müəyyən qiymətə satışa çıxarmağa hazırladıqları məhsulun miqdarıdır. Qeyd edildiyi kimi, bazar iqtisadiyyatında tələb və təklif bir-birini tənzimləyir. Tələbin artması məhsulun qiymətinin artmasına, təklifin artması isə tələbin azalmasına və istehsal edilən məhsulun qiymətinin aşağı düşməsinə səbəb ola bilər.

Tələb və təklifə başqa amillər də təsir edir. Məsələn; çörəyə olan tələbat təkcə çörəyin qiymətindən deyil, gəlirdən, başqa qidaların qiymətindən, çeşidin çoxluğundan və s. asılıdır.

Tələb təkliflə sıx bağlı olduğu üçün hər bir ölkənin iqtisadiyyatında mühüm rol oynayır. Bu isə həmin ölkənin inkişafına təkan verir.

!

Sual və tapşırıqlar:

1. Bazarda qiymət necə müəyyən olunur?
2. Ölkəmizin iqtisadiyyatını gücləndirən vasitələrin siyahısını tərtib edin.
3. Neft sənayesinin, turizmin inkişafının iqtisadiyyata təsirinə aid məlumat toplayın.
4. Bir ölkədə əhalinin tələbatları azalsa, bu, ölkə iqtisadiyyatına təsir edə bilərmi? Fikrinizi izah edin.
5. Ölkəmizin iqtisadi inkişafını əks etdirən plakat hazırlayın.
6. İqtisadiyyatın hansı sahəsinə daha çox üstünlük verirsiniz? Səbəbini izah edin.
7. Qiymət artarsa, istehlakçılar daha az benzin alar. Bu nümunə əsasında qiymətin tələbdən asılılıq qrafikini qurun.
8. “Tələbin azalması qiymətlərin düşməsinə və təklifin azalmasına səbəb olur”. Misallar göstərin.

CANSIZDAN CANLIYA

III bölmə

9. Maddələrin tərkibi və xassələri
10. Elementlər
11. Bir maddədən yeni maddə alına bilərmi?
12. Saf maddələr və qarışıqlar
13. Qeyri-üzvi və üzvi maddələr
14. Üzvi maddədən canlıya
15. İnsan – təbiətin ali varlığı

9 Maddələrin tərkibi və xassələri

III bölmə

Ətrafdakı cisimlərin müxtəlif maddələrdən təşkil olunduğunu bilirsiniz. Maddənin aqreqat halları hansılardır? Görəsən, maddələr bir-birindən daha hansı xüsusiyyətlərinə görə fərqlənir?

Maddələri bir-birindən fərqləndirən və oxşarlığını müəyyən edən əlamətlərə ***maddələrin xassələri*** deyilir. Maddələr iki cür: ***fiziki*** və ***kimyəvi*** xassələrə malikdir.

? Aşağıdakı maddələri bir-birindən fərqləndirin: su, oksigen, xörək duzu, kömür.

Maddənin xassələri

Fiziki xassələri
- aqreqat halı
- rəngi
- sıxlığı
- iyi
- dadı
- həllolma qabiliyyəti
- istilik və elektrikkeçirmə qabiliyyəti
- ərimə və qaynama temperaturu

Kimyəvi xassələri
- digər maddəyə çevrilmə qabiliyyəti

Bərk maddələrdən hazırlanan cisimlər, adətən, öz həcmini saxladığına görə onların formasını dəyişmək üçün müəyyən güc sərf etmək lazım gəlir. Bərk cisimlər ***plastik*** və ***elastik*** olmaqla iki qrupa bölünür. Plastik cisimlər sıxıldıqda formasını dəyişir, sonradan isə özözünə əvvəlki formanı ala bilmir. Plastilin, mum

belə maddələrdəndir. Rezin borunu, polad yayı sıxıb buraxdıqda isə onlar öz əvvəlki formalarına qayıdır. Belə maddələrə elastik maddələr deyilir.

? Şəkillərə əsasən maddələrin hissəcikləri arasında məsafəni izah edin.



Mayelər öz formasını asanlıqla dəyişir, töküldüyü qabın formasını alır, həcmini isə sabit saxlayır.

Qazların xüsusi həcmi yoxdur, verilən bütün həcmi tutur.

? Üç qab götürüb hər birinə ayrılıqda maye, qaz və bərk maddə yerləşdirsək və onları aşağıdakı şəkillərdə olduğu kimi, eyni çəkili daşlarla sıxsaq, nə baş verər? Şəkillərə əsasən fikrinizi söyləyin.



1. *Qaz, maye və bərk maddələrin sıxılma xüsusiyyətləri eynidirmi?*
2. *Bərk maddələr nə üçün sıxılmır?*
3. *Nə üçün maye qaza nisbətən az sıxılır?*

Maddələrin xassələrini nəzərə alaraq insanlar onlardan cisimlər hazırlayırlar. Məsələn; müxtəlif maddələr olan şüşə və metaldan eyni formalı qablar; rezin, şüşə və metaldan isə eyni formalı borular hazırlana bilər.

Maddələrin aqreqat hallarını və digər xassələrini bildikdən sonra təcrübələr aparaq.

Bir kağız vərəqini qayçı ilə ən kiçik hissələrə bölək.

Qəndi çəkiclə əzək.

Stəkandakı sudan pipetlə bir neçə damcı ayıraq.

Sizcə, bu maddələri ən kiçik hissələrə ayırdınızmı? Fikirlərinizi söyləyin.





Kristal maddənin suda həll olması

Qəndi stəkandakı isti suya salıb qarışdıraq.

Rəngli kristal maddəni suda həll edək.

Nə müşahidə etdiniz?

Bərk maddə hissəcikləri qabdakı mayenin içindədir. Bizim gözümüzlə görə bilmədiyimiz bu kiçik hissəciklər molekullardan, molekullar isə atomlardan ibarətdir. Keçmiş dövrlərdə atomları maddənin ən kiçik hissəciyi hesab edirdilər. “Atom” sözünün mənası da “bölünməz” deməkdir. Sonradan alimlər atomların da bölünə bildiyini kəşf etdilər.

Hidrogen atomu kiçik, yod atomu isə böyük atom hesab olunur.

Demokrit

Maddələrin bölünməyən hissəciklərdən ibarət olduğunu ilk dəfə eramızdan təqribən 2500 il əvvəl qədim yunan filosofu Demokrit söyləmişdir.

Təbiətdə yüzdən çox atom növü var. Atomlar birləşib molekulları əmələ gətirir. Maddələrin bir qismi eyni atomlardan, digər qismi isə müxtəlif atomlardan təşkil olunur. Məsələn, su molekullarının tərkibində hidrogen və oksigen atomları var. Havanın tərkibində olan oksigen qazı və azot qazı eyni atomlardan, karbon qazı isə müxtəlif atomlardan təşkil olunub.



Yod molekulları



Oksigen qazı molekulları

Azot qazı molekulları



Karbon qazı molekulları



Su molekulları

? Əgər maddələr müxtəlif deyil, yalnız eyni atomlardan təşkil olunarsa, bu zaman təbiətdəki maddələrin sayı dəyişərmi? Nə üçün?

Atom və molekullar daim hərəkətdədir. Onların arasında olan boşluqların ölçüsü maddənin aqreqat halından və temperaturundan asılıdır. Temperatur artdıqca molekulların hərəkət sürəti və onların arasındakı məsafə də artır. Molekulların arasında cazibə qüvvəsi mövcuddur. Bu qüvvə qazlar arasında çox az, maye molekulları arasında qazlara nisbətən çox, bərk maddələr arasında isə daha çoxdur.



Müxtəlif şəraitdə su molekulları, buz, maye və buxar

Molekulları eyni atomlardan təşkil olunan maddələr:

✓ *azot qazı* ✓ *oksigen qazı* ✓ *hidrogen qazı* ✓ *xlor qazı*

Molekulları müxtəlif atomlardan təşkil olunan maddələr:

✓ *su* ✓ *karbon qazı* ✓ *zülal* ✓ *nişasta*

Sual və tapşırıqlar:

1. Məişətdə hansı kimyəvi maddələrdən istifadə olunur? Nə üçün onlardan istifadə edərkən ehtiyatlı olmaq lazımdır?

2. Plastik və elastik cisimləri necə fərqləndirmək olar?

3. İki qazın birləşməsindən yaranan maye halında maddə yazın.

4. Uyğunluğu müəyyən edin:

1. Hissəcikləri arasında məsafə böyükdür.
2. Hissəcikləri arasında məsafə kiçikdir.

a) şüşə
b) benzin
c) rezin
d) dəmir
e) oksigen qazı

5. Orxan dəmir parçasını və şişirdilmiş şarı əli ilə sıxır, bütün ağırlığını bu əşyaların üzərinə salır. Bununla Orxanın nəyi yoxlaya biləcəyini müəyyənləşdirin. Fikirlərinizi əsaslandırın.

6. Xörək duzu ilə şəkər tozunun, spirtlə suyun oxşar və fərqli fiziki xassələrini müqayisə edin.

	xörək duzu	şəkər tozu	spirt	su
Fərqli	***	***	***	***
Oxşar	***	***	***	***

10 Elementlər

III bölmə

Kimyəvi element anlayışı elmə XIX əsrin əvvəllərində ingilis kimyaçısı Con Dalton tərəfindən gətirilmişdir.

Element "tərkib hissə" deməkdir. Kimyəvi element atomun müəyyən bir növüdür. Hazırda 100-dən çox elementin olduğu da məlumdur. Bu elementlərə həm canlı, həm də cansız təbiətdə rast gəlinir. Oksigen, karbon, azot və hidrogen elementləri canlı orqanizmləri təşkil edən maddələrin tərkibində daha çoxdur. Ancaq atom və kimyəvi element anlayışlarını eyniləşdirmək olmaz. Elmə məlumdur ki, bir çox elementlərin müxtəlif kütləli atomları mövcuddur. Atom konkret bir hissəcikdir.

Suyun tərkibi hidrogen və oksigen elementlərindən ibarətdir. Şəkərin tərkibində üç element: karbon, hidrogen, oksigen vardır. Deməli, bu maddələr müxtəlif kimyəvi elementlərdən təşkil olunub. Kimyəvi elementlərin əmələ gətirdikləri maddələr metallar və qeyri-metallara bölünür.

Metallar adi şəraitdə parlaq və bərk olur (*civədən başqa*), elektrik cərəyanını və istiliyi keçirir, plastikdir. Qeyri-metallar isə parlaq olmur, elektrik cərəyanını və istiliyi keçirmir, ya da pis keçirir. Onlar qaz, maye və bərk halda olur.

Hazırda elementlər milyonlarla maddələri əmələ gətirir. Bu maddələrin tərkibindəki elementləri xüsusi işarələrlə göstərirlər. Bu işarələr latınca elementin adının baş hərfini və ya iki hərfini ifadə edir.

O — *oksigen*	Cu — *mis*
H — *hidrogen*	Ag — *gümüş*
N — *azot*	Al — *alüminium*
C — *karbon*	Fe — *dəmir*
I — *yod*	Mg — *maqnezium*

Qiymətli daşların çoxu bir neçə elementdən ibarətdir. Almaz yalnız karbon elementindən təşkil olunmuşdur.

Elementlərin adlandırılması müxtəlif prinsiplər əsasında təyin edilib: bəziləri xassələrinə görə (*fosfor – işıq saçan*), digərləri Günəş sistemi planetlərinin (*Uran, Selen və s.*), həmçinin bəzi ölkələrin və qitələrin (*Germanium, Evropium və s.*), məşhur alimlərin (*Bor, Eynşteynium və s.*) şərəfinə adlandırılmışdır.

Sual və tapşırıqlar:

1. Maddələrin tərkibindəki elementlər müxtəlif ola bilərmi? Niyə?
2. Qızıl və kömürü xassələrinə görə bir-birindən fərqləndirin.
3. Metallardan hazırlanan cisimlərin siyahısını tərtib edin.




4. Yodun xassələri və əhəmiyyətinə dair məlumat toplayın.
5. Bəzək əşyaları hazırlanan maddələrin siyahısını tərtib edin.

11 Bir maddədən yeni maddə alına bilərmi?

III bölmə

Gəlin belə bir sual ətrafında düşünək: bir maddədən yeni bir maddə alına bilərmi? Bunun üçün sehrbazların etdiklərini yadınıza salın. Sehrbazlar misi qızıla çevirir, bir cismi yox edib əvəzinə yenisini yarada bilirlər. Əslində, bu, bir maddədən yeni maddənin alınması deyil. Bu zaman göz aldanır. Hadisənin əslini görə bilmirik. Bəs bunu necə izah etmək olar? Bu, bir maddənin yenisinə çevrilməsi adlana bilərmi?

Birlikdə bu suala cavab tapmağa çalışaq və bu məqsədlə müxtəlif təcrübələr aparaq:

1. İki ayrı-ayrı həvəngdəstədə qoz ləpəsi və qəndi əzək.

2. Mumu və şokoladı alüminium qabda əridək.

3. Kağızı və ya kartonu qayçı ilə kiçik hissələrə kəsək.

?

Hansı dəyişiklikləri müşahidə etdiniz? Yeni maddələr alındımı?



Bir maddənin yeni maddəyə çevrilməməsi ilə baş verən dəyişikliklər ***fiziki hadisələr*** adlanır.

Maddənin fiziki xassələrinə onun aqreqat halı, rəngi, iyi, dadı, sıxlığı, həllolma və elektrikkeçirmə qabiliyyəti, ərimə və qaynama temperaturunun aid olduğunu bilirsiniz.

Gəlin digər təcrübələr də apararaq nəticələri müzakirə edək:

1. Kartofu kəsib, onun üzərinə bir neçə damcı yod tökək.



2. Kağızı yandıraq.

3. Qəndi sınaq şüşəsində qızdıraq.

Bu təcrübələrdə nə müşahidə etdiniz?

- Kartofun üzərinə yod tökərkən nə üçün rəngi dəyişir?
- Kağız yanarkən nə üçün onun rəngi qaralır?
- Şəkər qızdırıldıqda əriyir, sonra qaralır. Burada yeni maddə nə zaman yaranır?

Bir maddənin yeni maddəyə çevrilməsi ilə baş verən dəyişikliklərə **kimyəvi hadisələr** deyilir. Kimyəvi hadisələr zamanı maddənin tərkibi dəyişir. Maddələrin kimyəvi xassələrinə onların xarici təsirlər nəticəsində yeni maddələrə çevrilməsinin, başqa maddələrlə qarşılıqlı təsirinin və s. aid olduğunu bilirsiniz. Siz apardığınız təcrübələrdə fiziki və kimyəvi hadisələrin necə fərqləndiyini əyani şəkildə müşahidə etdiniz. Gündəlik həyatınızda belə hadisələrlə tez-tez rastlaşacaqsınız.

Sual və tapşırıqlar:

1. Şəkilləri müqayisə edin və dəyişikliyin səbəbini söyləyin.

2. Kağızın kiçik parçalara bölünməsi ilə yanması arasındakı fərqi izah edin.
3. Məişətdə istifadə olunan ərzaq məhsullarında baş verən dəyişikliklərə aid nümunələr yazın.
4. Müqayisə edin və fikirlərinizi söyləyin.

12 Saf maddələr və qarışıqlar

III bölmə

Şəkəri suda həll etsək, nə müşahidə edərik? Bərk şəkər və suda həll olunmuş şəkər haqqında nə deyə bilərsiniz?

Maddələr

- **Saf maddələr** — *tərkibində yalnız bir növ atom və ya molekul olur.*
- **Qarışıqlar** — *tərkibində iki və daha çox saf maddə olan bir sistemdir.*

Bizi əhatə edən mühitdə maddələr, əsasən, qarışıq halda olur. İstər nəfəs aldığımız hava, istər torpaq, istərsə də yayda həvəslə sərinləndiyimiz dəniz suyu müxtəlif maddələrin qarışığından ibarətdir.



Tək bir elementdən ibarət olan və ya eyni molekullardan əmələ gələn maddələr ***saf*** maddələrdir. Saf maddələrə təbiətdə az rast gəlinir. Məsələn; oksigen qazı, yod, karbon qazı, hidrogen qazı, su buxarı, saf maddələrdir.



Saf maddələrin xassələri həmişə sabit olur. Məsələn, saf su normal şəraitdə 100°C-də qaynayır, 0°C-də isə donur. Qarışıqların xassələri isə dəyiş-

kən olur. Onların xassələri tərkiblərindəki maddələrin miqdarından asılıdır. Məsələn; suda həll olmuş duzun miqdarından asılı olaraq suyun donma və qaynama temperaturu dəyişir. Duzlu su saf sudan gec donur və daha yüksək temperaturda qaynayır.

Bəs qarışıqları saf maddələrə necə ayırmaq olar? Bunun üçün müxtəlif üsullardan istifadə olunur.

Qarışıqları saf maddələrə ayırmaq üsulları:

- ✓ *kristallaşdırma*
- ✓ *çökdürmə*
- ✓ *durultma*
- ✓ *süzmə*
- ✓ *buxarlandırma*
- ✓ *maqnitlə ayırma*
- ✓ *distilləetmə*

? Qarışıqların ayrılma üsullarını müəyyən edin. Seçiminizi əsaslandırın.

1. Dəmir tozu və odun-caqdan alınan kə-pək qarışığı	*2. Xörək duzu ilə qum qarışığı*	*3. Dəmir tozu və kü-kürd tozu qarışığı*

Hazırda bəzi saf maddələrin çox əhəmiyyətli olduğu sübuta yetirilmişdir. Məsələn; kosmonavtikada, radiotexnikada belə saf maddələrdən istifadə olunur.

Ətrafımızda və bədənimizdə müxtəlif qarışıqlara rast gəlinir. Məsələn; tənəffüs etdiyimiz hava, neft, dəniz və okean suyu, torpaq, bədənimizdə dövr edən qan, dərimizdən ifraz olunan tər və s. qarışıqlardır.

Maddələrin fiziki xassələrindən biri də onların suda həll olunmasıdır. Bəzi qarışıqların ayrılma üsulları onların tərkibindəki saf maddələrin suda həllolma qabiliyyətindən asılıdır. Məsələn; şəkər tozu və su qarışığını buxarlandırma, qum və su qarışığını isə süzmə üsulu ilə ayırırlar.

Neftin tərkibində müxtəlif kimyəvi elementlərin təqribən 380 mürəkkəb birləşməsi var.





Dəmir tozu ilə kükürd tozunun müxtəlif üsullarla ayrılması

Sual və tapşırıqlar:

1. Hazırlanmış qəhvənin içində hansı maddələrin qarışığı olduğunu dəftərinizə yazın.

2. Bir ovuc torpaq götürüb su ilə qarışdırın və gördüklərinizi izah edin.

3. Keçmişdə süddən yağı necə ayırdıqlarını araşdırıb öyrənin.

4. Duzlu sudan duzu necə ayırmaq olar? Fikrinizi izah edin.

5. Maqnitlə ayırmaq üsulundan istifadə etməklə hansı qarışığı ayırmaq mümkündür?

- xörək duzu və qənd qırıntıları;
- təbaşir tozunun su ilə qarışığı;
- mismarla torpağın qarışığı.

13 Qeyri-üzvi və üzvi maddələr

III bölmə

Görəsən, təbiətdəki maddələri bir-birindən daha necə fərqləndirmək olar?

Təbiətdəki maddələr iki yerə bölünür: qeyri-üzvi və üzvi. Maddələrin belə adlandırılması təsadüfi deyil. Qeyri-üzvi maddələrə su və duzlar; üzvi maddələrə isə zülallar, yağlar, karbohidratları nümunə göstərmək olar. Lakin yalnız üzvi maddələri canlı orqanizmlər sintez edir. Üzvi maddələri əvvəllər laboratoriyalarda almaq mümkün deyildi. Hazırda isə laboratoriyalarda bəzi üzvi maddələri süni yolla sintez etmək olur.

təbii yumurta

süni yumurta

təbii düyü

süni düyü

Əksər üzvi maddələrin tərkibində karbon və hidrogen elementləri vardır. Bir çox üzvi maddələrdə karbon və hidrogen elementləri ilə yanaşı, oksigen, azot, fosfor və s. elementlər də olur. Üzvi maddələri yandırsaq, onlardan qeyri-üzvi maddələr alınar. Məsələn, toxumu sınaq şüşəsində yandırsaq, o, əvvəlcə qaralar, sonra isə yanaraq külə (*mineral maddəyə*) çevrilər. Bu zaman həm də karbon qazı və su ayrılır. Beləliklə, üzvi maddələrdən qeyri-üzvi maddələr yaranır. Təbiətdə yaşıl bitkilərdə gedən *fotosintez* prosesi zamanı isə karbon qazı ilə sudan üzvi maddə və oksigen alınır.

Canlılar hüceyrələrdən təşkil olunmuşdur. Hüceyrələr canlıların ən kiçik hissələridir. Hüceyrənin tərkibi isə qeyri-üzvi və üzvi maddələrdən ibarətdir. İlbizlərin çanağında, bədənimizdəki sümüklərin və s. tərkibində qeyri-üzvi maddələrlə yanaşı, üzvi maddələr də vardır.

Bunu müşahidə etmək üçün təcrübələr aparaq.

Oksigen, karbon, hidrogen və azot hüceyrədəki elementlərin 98 faizini təşkil edir.

?

Şəklə əsasən yandırılmış (1) və kimyəvi məhlulda saxlanılmış (2) sümükdə hansı dəyişikliyin baş verdiyini yoldaşlarınızla müzakirə edin.

1

2

Sümüyə qeyri-üzvi maddələr sərtlik, üzvi maddələr isə elastiklik verir.

Turşunun təsiri və yanma nəticəsində sümükdə kimyəvi dəyişiklik baş verir. Yəni qeyri-üzvi maddələr turşu ilə kimyəvi qarşılıqlı təsirə məruz qalır, onun tərkibi dəyişir. Üzvi maddələr isə yanır və digər maddələr əmələ gəlir. Deməli, sümüyün möhkəmliyi həmin maddələrdən asılıdır.

Sual və tapşırıqlar:

1. Qida məhsullarının tərkibində olan tanıdığınız üzvi və qeyri-üzvi maddələrin siyahısını tərtib edin.
2. Bitkilərdən alınan məhsullarda üzvi maddələrin olmasını hansı təcrübələrlə sübut edə bilərsiniz? Fikirlərinizi yazın.
3. Sxemdəki fotosintez prosesinə əsasən uyğun maddələri təyin edin:



4. Şəkillərə əsasən neftdən alınan məhsulları müəyyən edin. Bu məhsulların birinin tərkibinə və tətbiq sahəsinə dair məlumat toplayın.

14 Üzvi maddədən canlıya

III bölmə

Şəklə baxın. Orada çoxlu hissəciklər var. Onları bir yerə yığsaq, avtomobil alınar.

Canlılar da bu cür kiçik hissəciklərdən, yəni hüceyrələrdən ibarətdir. Adi gözlə görünməsi mümkün olmayan bu hissəcikləri, yəni hüceyrələri müşahidə etmək üçün mikroskop adlanan böyüdücü cihazdan istifadə olunur. Siz artıq hüceyrələrin tərkibinin qeyri-üzvi və üzvi maddələrdən təşkil olunduğunu bilirsiniz. Bəs müxtəlif canlıların hüceyrələri bir-birindən necə fərqlənir?

Mikroskop kəşf edilənə qədər canlıların bir qismi, onların quruluşu insanlara məlum deyildi. Bu, tibb sahəsinə də öz təsirini göstərmişdi. Belə ki bir sıra xəstəliklərin səbəbi bilinmədiyindən düzgün müalicə aparılmırdı. Mikroskopun kəşfi bir çox sirlərin açılmasına və yeniliklərə səbəb oldu.



Bakteriya hüceyrəsi



Göbələk hüceyrəsi



Bitki hüceyrəsi



Heyvan hüceyrəsi



İşıq mikroskopu

İlk dəfə *Robert Huk* mikroskopla mantar* kəsiyini nəzərdən keçirərkən hüceyrələri gözcüklər şəklində görmüşdür. Hollandiyalı *Anton Van Levenhuk* isə özü hazırladığı mikroskopla ilk dəfə birhüceyrəli varlıqları müşahidə etmişdir. Ancaq o dövrdəki mikroskoplar hüceyrələri o qədər də aydın göstərmirdi. Lakin illər keçdikcə mikroskoplar təkmilləşdi və müasir mikroskoplar yarandı. Müasir işıq mikroskopları hüceyrələri min dəfələrlə böyütmə gücünə malikdir. Hətta indi daha çox böyütmə gücünə malik olan ***elektron mikroskoplar*** da var. Artıq elmə məlumdur ki, müxtəlif hüceyrələr bir-birinə həm oxşayır, həm də fərqlənir.

* Mantar ağac və kol bitkilərinin gövdəsində olan qabığın bir qatıdır.

Sitoplazmanın içində sitoplazma orqanoidləri yerləşir.

Bütün hüceyrələrin plazmatik membranı, qılafı və sitoplazması olur.

Bitki, heyvan və göbələk hüceyrələrində nüvə vardır.

Müxtəlif canlıların hüceyrələri oxşar və fərqli xüsusiyyətlərə malikdir.

Heyvan hüceyrələrindən fərqli olaraq, digər canlıların hüceyrələrində membran üzərində qalın qılaf yerləşir.

Bir hüceyrə bir orqanizm ola bilər: bakteriyaların hamısı, göbələk, bitki və heyvanların bəzi növləri.

Bakteriyaların nüvəsi yoxdur.

İnsan orqanizmində hüceyrələrin sayı trilyonlarladır.



İnsan hüceyrəsinin modeli

Hüceyrəni bir fabrikə bənzətmək olar. Fabrikin divarı plazmatik membran, binanın içi sitoplazma, işçilər orqanoidlər, rəhbərlik isə nüvəyə bənzəyir.
Əgər bu, heyvan hüceyrəsidirsə, onu bitki hüceyrəsinə oxşatmaq üçün nə əlavə edərdiniz?

Nüvə *çoxalmanı təmin edir, irsi məlumatları daşıyır.*

Mitoxondri *enerji mənbəyidir.*



Xloroplast *bitkilərdə fotosintezi həyata keçirir.*



Ribosom *zülal sintez edir.*

Təbiətdəki canlıların bir qismi böyüdücü cihazlar vasitəsilə görünsə də, bir qismi çox nəhəngdir. Yer üzərindəki canlılar: bakteriyalar, göbələklər, bitkilər və heyvanlar hüceyrəvi quruluşa malikdir. Bu canlılar hüceyrələrdən təşkil olunmuşdur. Təbiətdə hüceyrəvi quruluşu olmayan canlı varlıqlar – viruslar da mövcuddur. Viruslar hüceyrəsiz həyat formalarıdır.

Bütün bunlardan belə bir nəticəyə gəlmək olur ki, insan digər canlılarla vəhdət təşkil edir. Onun hüceyrələrinin quruluşu heyvan hüceyrələri ilə oxşardır. Deməli, canlılar birhüceyrəlilərdən çoxhüceyrəlilərə, onlar da inkişaf edərək insana qədər təkamül etmişdir.

Sual və tapşırıqlar:

1. Bir hüceyrə bir orqanizm ola bilərmi? Fikrinizi izah edin.

2. Mikroskoplar kəşf olunmasaydı, canlıların hansı xüsusiyyətlərini öyrənmək olmazdı?

3. Yalnız mikroskopla müşahidə edilən canlılar haqqında məlumat toplayın.

4. İnsanın canlıların nəsil ağacında ən yüksək pillədə durmasının səbəbini izah edin.

15 İnsan – təbiətin ali varlığı

III bölmə

Məşhur "Kitabi-Dədə Qorqud" dastanında insan təsvir edilərkən təbiətlə müqayisə olunur. Sizcə, buna səbəb nədir?

Nə üçün insan təbiətin ali varlığıdır? Bu suala cavab axtaraq. İnsan beyninin quruluşu digər canlılarınkından daha mürəkkəbdir. İnsan nitq və təfəkkürə malikdir. İnsan təbiətdən ayrı yaşaya bilməz, onun yaşaması üçün lazım olan nə varsa, təbiətdən alır və təbiətdən bəhrələnir. Əgər təbiətdə Günəş, su, hava olmasa, insan mövcud ola bilməz. O, təbiətdən yaşamaq üçün qida əldə edir, digər sərvətlərdən isə müxtəlif məqsədlər üçün faydalanır. Ancaq insan təbiətdəki sərvətləri plansız surətdə mənimsədiyi zaman təbiətə zərər vurur.

İnsanın varlığı və sağlamlığı da, demək olar ki, ətraf mühitdən asılıdır. İnsanın təbiətə vurduğu ziyan birbaşa onun özünə vurduğu ziyana bərabərdir. Əgər əvvəllər insanların təbiətə vura biləcəyi zərər adi bir canlının gücü çatacaq miqyasda ölçülürdüsə, bu gün onun fəaliyyəti nəticəsində bütün silahlardan təhlükəli olan "ekoloji partlayış"a səbəb olacaq bir vəziyyət yaranıb. Bu təbiətdə bioloji tarazlığın pozulmasına gətirib çıxarmışdır.

Atom bombasının* yaradılması, kimyəvi və bioloji silahların istehsalı, kənd təsərrüfatında istifadə olunan zərərli maddələr, zavodların havaya buraxdığı zərərli qazlar təbiətə böyük ziyan vurur. II Dünya müharibəsində Amerikanın Yaponiyaya atdığı atom bombaları, Vətən müharibəsi zamanı düşmənin istifadə etdiyi fosforlu bombalar buna əyani sübutdur. Bütün bunlara baxmayaraq, insan hələ də bir çox təbiət hadisələri qarşısında gücsüzdür. Son illərdə baş verən zəlzələlər, daşqınlar, sellər və s. buna misal ola bilər.

---

* *Atom bombası yüksək dağıdıcı gücü olan silahdır.*

İnsan bu torpağa qədəm qoymuş ən qüdrətli varlıqdır.

Sofokl
qədim yunan dramaturqu

Bütün bunlarla yanaşı, susuz səhralara su çəkən, şəhərlər salan, yararsız torpaqları məhsuldar torpaqlara çevirən, öncədən qırdığı meşələri bərpa edərək süni meşələr yaradan, təbiəti yenidən canlandıran insandır. O bununla da kifayətlənmir. Yeni bitki sortları, heyvan cinsləri yaradır, əhliləşdirir, nəsli tükənməkdə olan canlıları qorumaq üçün qoruq və yasaqlıqlar, milli parklar salır.

İndi Yer kürəsində insan fəaliyyəti nəticəsində dəyişməyən ərazi yoxdur. İnsan təbiətin qanunlarına müəyyən qədər təsir edə bilir. Lakin bəzən bu təsir fəlakətlərlə nəticələnir. Belə ki sənaye və texnikanın inkişafı təbiət üçün zərərsiz ötüşmür. Cəmiyyətin varlığı üçün iqtisadi inkişaf nə qədər vacib olsa da, təbiəti də o cür sevməli, qorumalı və qayğısına qalmalıyıq.

Azərbaycanın bitki və heyvanlar aləmi öz zənginliyi ilə seçilir. Ötən əsrin sonlarından başlayaraq Azərbaycan torpaqlarının 20%-nin işğal edilməsi həmin ərazilərdə flora və faunanın bir çox növlərinin məhvinə səbəb olmuşdur. İşğal olunmuş torpaqlarımızı azad etmək həm dövlətimizin, həm də hər bir vətəndaşımızın vəzifəsi idi.

? Qarabağın flora və faunası ilə bağlı yoldaşlarınızla müzakirə aparın.

Şuşanın Topxana meşəsi

Vətən müharibəsi zamanı Qarabağ və ətraf ərazilər erməni işğalından azad edildi. Torpaqlarımızın geri qaytarılması ilə tarixi mədəni abidələrimiz, flora və faunamız mənfur düşmənin terrorundan xilas edildi. Çox yaxın gələcəkdə həm mədəni irsimizin, həm də canlılar aləminin bərpasına nail olacağıq.

Sual və tapşırıqlar:

1. İnsanın təbiətə vurduğu ziyanların siyahısını tərtib edin.

2. Sizə təbiəti qorumaq haqqında tədbirlər planı hazırlamaq tapşırılsaydı, ora nələri daxil edərdiniz? Siyahı tərtib edin.

3. İnsan nə üçün təbiəti dəyişən yeganə varlıq hesab olunur?

4. İnsan bitkiləri gübrələrlə qidalandırır. Bu gübrələrin ziyanı varmı?

5. “Mən təbiəti qorumağa borcluyam” mövzusunda inşa yazın.

TƏHLÜKƏSİZ HƏYAT

IV bölmə

16. Sağlamlığın şərtləri
17. Gigiyena sağlamlığın şərtidir
18. Yoluxucu xəstəliklərdən qorunma yolları
19. Təhlükəsizliyin təmin olunması
20. Təbiətdəki təhlükəli hadisələrdən qorunaq
21. Texnogen mənşəli qəzalardan qorunaq
22. Yol nişanlarına diqqət edək

16 Sağlamlığın şərtləri

IV bölmə

Bizə doğma və əziz olan insanlarla görüşəndə və ya ayrılanda onlara can-sağlığı arzulayırıq. Görəsən, nə üçün?

Sağlamlıq xoşbəxt həyatın əsas şərti və təminatıdır.

?

Sizcə, hansı insanlar sağlam hesab olunur? Sağlamlığın şərtləri nədir?

Bəzən bədən çəkisinin artıq olması, hərəkət azlığı, düzgün qidalanmamaq, psixoloji gərginlik, siqaret və spirtli içkilərdən istifadə, yoluxucu xəstəliklərə tutulma və s. insanın sağlamlığını təhlükə qarşısında qoyur.

Sağlamlığımızı möhkəmləndirsək və qorusaq, uzun ömür sürər və fəal həyat tərzi keçirərik.

Narkotik maddələr, spirtli içkilər və tütün məmulatlarına aludəçilik zərərli vərdişlər hesab olunur. Bu vərdişlər həm insan orqanizminə, həm də bütövlükdə cəmiyyətə ziyan vurur.

Sağlam olmaq üçün aşağıdakılara əməl etmək vacibdir:

- ✓ *şəxsi gigiyenaya və təmizliyə riayət etmək;*
- ✓ *ətraf mühitin təmizliyini qorumaq;*
- ✓ *zərərli vərdişlərdən uzaq olmaq;*
- ✓ *düzgün istirahət etmək;*
- ✓ *idmanla məşğul olmaq;*
- ✓ *düzgün qidalanmaq;*
- ✓ *reproduktiv sağlamlığı qorumaq;*
- ✓ *tarazlaşdırılmış gün rejimi.*

?

Yoldaşlarınızla müzakirə edin:

İnsanlardan biri düzgün qidalanır, fiziki cəhətdən aktivdir, istirahətini düzgün müəyyənləşdirir, siqaret çəkmir, spirtli içki və narkotikdən istifadə etmir. İkinci insan isə əlinə keçəni yeyir, az hərəkətlidir, gün ərzində az yatır və çox siqaret çəkir.

Erkən yaşlardan bədən tərbiyəsi və idmanla məşğul olmaq, orqanizmi möhkəmləndirmək olduqca vacibdir. İdman orqanizmi xəstəliklərdən qoruyur, sağlam saxlayır. Ona görə də bacardığınız qədər daha çox hərəkət edin, asudə vaxtınızı təmiz havada hərəkətli oyunlar oynayaraq keçirin. Lakin idman edərkən müəyyən qaydaları da unutmaq olmaz! Mütəxəssislərin məsləhətinə görə, idmana başlamazdan, ən azı, yarım saat əvvəl qida qəbulu dayandırılmalı və kiçik hərəkətlərlə bədənin isinmə prosesi yerinə yetirilməlidir. Əgər bunu etməsəniz, sağlamlığınızla bağlı problemlər yarana bilər.

Fiziki tərbiyə sağlam inkişafa təkan verir, dözümlülüyü tənzimləyir, insanda müsbət emosiyalar yaradır.

? Sağlamlığın fiziki, mənəvi, emosional şərtlərini yadınıza salın. Yuxarıda qeyd olunanları sağlamlığın hansı şərtinə aid etmək olar?

Reproduksiya özünə bənzəyən orqanizmin yaradılması deməkdir. İnsan özündən sonra bəşəriyyətə yeni varlıq bəxş edir. Bunun üçün o, fiziki və mənəvi cəhətdən sağlam olmalı, əlverişli yaşayış şəraiti ilə təmin olunmalıdır. Reproduktiv sağlamlığın təməli hələ uşaq yaşlarında qoyulur. Onu bütün həyat boyu qoruyub-saxlamaq lazımdır.

Günəş vannası orqanizmi möhkəmləndirmək üçün əlverişli vasitələrdən biri hesab edilir. Havalar istilənən kimi, yəqin ki, dənizə getmək və günəş vannası qəbul etmək fikrinə düşürsünüz. Həkimlər günəş vanna-

Təmiz havada gəzməyə vaxt ayırın.

sından müəyyən saatlarda və düzgün qaydada istifadəni əvəzedilməz müalicə növü hesab edirlər. Günəş şüası altında orqanizmdə D vitamininin sintezi artır ki, bu da sizin sümükləriniz üçün olduqca əhəmiyyətlidir. Lakin günəş vannasından çox istifadə edilməməlidir. Səhər evdən çıxıb axşama qədər dəniz kənarında, gün altında qalmaq müxtəlif xəstəliklərə, günəş yanıqlarına səbəb olur. Günəş vannası qəbul edərkən qoruyucu kremdən istifadə etmək, ağır qida qəbul etməmək, çoxlu maye içmək lazımdır. Günəş vannasının qəbulu orqanizmin daha çox maye itirməsinə səbəb olduğundan bədənin su itkisi dərhal bərpa olunmalıdır. Tərləmə ilə itirilən su bərpa olunmazsa, yorğunluq və baş ağrısı ilə nəticələnər.

Təmiz hava sağlamlığı təmin edən ən vacib şərtlərdən biridir. Havada olan oksigen qazı orqanizm üçün əvəzolunmazdır. Təəssüf ki, şəhərlərdə hava zəhərli qazlarla çirklənir. Bu isə insan orqanizmi üçün təhlükə yaradır. Orqanizmin xəstəliklərlə mübarizə aparmaq qabiliyyətini zəiflədir.

Sağlamlıq hər şey deyil, amma sağlamlıq olmadan hər şey bir heçdir.

alman filosofu
Artur Şopenhauer

Su sağlamlıq və təhlükəsizlik mənbəyidir. Həyat ilk dəfə suda əmələ gəlmişdir. Bədənimizin 70–80%-ni su təşkil edir. Su vasitəsilə orqanizmimiz möhkəmlənir. Qidalarımızın tərkibində də su var. Lazımsız maddələr orqanizmdən su ilə xaric olur.

Çimmək, üzmək, duş qəbul etmək, yaş dəsmalla bədəni silmək orqanizmi möhkəmləndirir.

Sağlamlığın vacib şərtlərindən biri də orqanizmi yoluxucu xəstəliklərdən qorumaqdır. Xəstəliklərin qarşısını almaq üçün peyvəndlərin çox böyük əhəmiyyəti var. Azərbaycanda Hepatit B, difteriya, göyöskürək, qızılca və s. xəstəliklərə qarşı peyvənd aparılır. Vaxtında edilən peyvəndlər bir çox yoluxucu xəstəliklərin qarşısını alır.

Sağlamlığın şərtlərinə əməl etsək, sağlam və gümrah olarıq.

Sual və tapşırıqlar:

1. Hansı şəxsi gigiyena qaydalarına əməl olunmalıdır?
2. Günəş vannasının orqanizm üçün əhəmiyyəti nədir?
3. Günəş vannası qəbul edərkən hansı şərtlərə əməl olunmalıdır?
4. Cədvəldə verilmiş əlamətlərə uyğun olaraq, sağlamlığın hansı şərtlərinə əməl olunmadığını və bunun nəyə səbəb olacağını müəyyənləşdirin.

Müşahidə olunan hallar	Sağlamlığın şərti	Nəticəsi
Əli bütün günü dənizdə çimir və qumda uzanır.	*****	*****
Akifin anası elmi işçidir. O bütün gününü kompüter arxasında oturaq vəziyyətdə keçirir.	*****	*****
Lalə 6-cı sinifdə oxuyur. O, gecə saat 12-yə qədər televizora baxır.	*****	*****

5. Dünyada Covid-19 virusunun qarşısını almaq məqsədilə insanlar peyvənd olunur. Peyvəndin üstünlüyü barədə məlumat toplayın və yoldaşlarınızla müzakirə edin.

17 Gigiyena sağlamlığın şərtidir

IV bölmə

Gigiyena insan sağlamlığını qorumaq haqqında elmdir. İnsan sağlamlığının qorunması üçün bir çox qaydalar tərtib olunmuşdur. Bu qaydalar iki qrupa ayrılır: ümumi və şəxsi gigiyena qaydaları. Bu qaydalar hansılardır və onlara necə əməl olunmalıdır? Fikirləşin.*

Şəxsi gigiyena qaydalarına əməl etmək hər birimiz üçün gündəlik vərdişə çevrilməlidir. Bu qaydaları yerinə yetirmək təkcə insanın özü üçün deyil, həm də ətrafındakılar üçün əhəmiyyətli dərəcədə vacibdir. Çünki gigiyena qaydalarına əməl etməyənlər bəzən yoluxucu xəstəliklərə tutulmaqla başqalarının da həyatını təhlükə qarşısında qoyurlar.

? Yaşıdlarınızın əməl etməli olduqları gigiyena qaydaları hansılardır? Yoldaşlarınızla birgə bu qaydalardan ibarət siyahı tərtib edin.

Müasir dövrümüzdə kompüterdən istifadə etməklə istədiyimiz məlumatı çox asanlıqla əldə edirik. Lakin uzun müddət kompüter qarşısında oturduqda otağın mikroiqlimi: temperatur, rütubət, səs-küy, elektrik və radiasiya sahəsi dəyişir, havada oksigenin miqdarı azalır. Belə mikroiqlimdə uzun zaman qalmaq isə müəyyən dərəcədə əqli, emosional, görmə funksiyalarına təsir edir, dəyişir, yorulma baş verir, orqanizmin yoluxucu xəstəliklərə qarşı müqaviməti azalır. Bundan əlavə, kompüter qarşısında çox oturduqda və düzgün oturmadıqda onurğanın qeyri-normal əyriliklərinə (skolioz və qeyri-normal hala keçmiş kifoz və lordoz) təsadüf olunur. Bu isə daxili orqanların fəaliyyətinə mənfi təsir göstərir.



* *Gigiyena yunan dilində "sağlamlıq" deməkdir.*

Sinir sistemi orqanizmdə gedən proseslərin tənzimlənməsində mühüm rol oynayır. Sinir sisteminin gərginliyi onun yorğunluğuna səbəb olur. Gərgin dərs həftəsindən sonra istirahət etmək, zehni yorğunluğu aradan qaldırmaq vacibdir. Siz də gün ərzində təmiz havada gəzintiyə, idmanla məşğul olmağa, oyunlar keçirməyə üstünlük verin.

İdmanla məşğul olmaq skelet və əzələləri möhkəmləndirir, qan dövranını yaxşılaşdırır, düzgün qaməti formalaşdırır.

Təmizlik sağlamlıqdır.

Mən düzgün oturmuşam.



Düzgün və vaxtlı-vaxtında qidalanma da uşaqların inkişafı və sağlamlığının ilkin şərtlərindəndir. Düzgün qidalanma beynin fəaliyyətinə müsbət təsir göstərir, müxtəlif xəstəliklərə qarşı orqanizmin immunitetini artırır.

Buna görə də qida rasionuna meyvə, tərəvəz, ət, balıq və süd məhsulları daxil edilməlidir. Qidanın hər gün eyni vaxtda qəbul edilməsi və yaxşı çeynənməsi də sağlamlıq üçün vacibdir.

- ✓ *Konservləşdirilmiş məhsulları yeyərkən ehtiyatlı olun.*
- ✓ *Mağazadan, yeməkxanadan alınan qidaların istehsal və son istifadə tarixlərinə diqqətlə baxın.*
- ✓ *Ayaqüstü yeməklərdən uzaq olun.*
- ✓ *Təsadüfi su mənbəyindən su içməyin.*
- ✓ *Ərzaqları üstüaçıq saxlamayın.*

Yoluxucu xəstəliklərdən qorunmaq üçün əməl olunmalı qaydalar:

- ✓ *başqalarının geyimlərindən, dəsmalından istifadə etməməli;*
- ✓ *xəstələrlə təmasda olarkən qoruyucu vasitələrdən istifadə etməməli;*
- ✓ *xəstə yatan otağın havasını tez-tez dəyişdirməli;*
- ✓ *tozu nəm əski ilə silməli;*
- ✓ *sosial məsafə saxlamalı.*

İnsanın dərisinə düşmüş bir sıra mikroorqanizmlər xəstəlik törədə bilir. Buna müxtəlif göbələk xəstəliklərini misal göstərmək olar. Dəri xəstəlikləri zamanı qaşınma, ağrı hissləri xəstələri narahat edir, müxtəlif iltihabi proseslər, şişlər, tər və piy vəzilərində pozğunluqlar yaranır.

Belə xəstəliklərə yoluxmamaq üçün:

- ✓ *sahibsiz ev heyvanları ilə oynamayın;*
- ✓ *dənizdə və hovuzda çimdikdən sonra duş qəbul edin;*
- ✓ *başqalarının darağından istifadə etməyin;*
- ✓ *başqalarının geyim əşyalarından istifadə etməyin;*
- ✓ *əl və dırnaqlarınızı təmiz saxlayın;*
- ✓ *dərini qıcıqlandıran vasitələrdən istifadə etməyin və s.*

Kitab oxuyarkən görmə qüsurunun yaranmaması üçün:

- ✓ *kitab oxuyarkən onu gözə yaxın tutmayın;*
- ✓ *işığın soldan düşməsini təmin edin;*
- ✓ *nəqliyyatda kitab oxumamağa çalışın;*
- ✓ *kitab oxuyarkən işığın zəif olmamasına diqqət yetirin.*

Təmizlik, otaqdakı havanın temperaturu və rütubəti, otağın işıqlandırılması da olduqca vacibdir. Buna görə də kompüter olan otaqlar, zallar kifayət qədər təbii işıqlandırılmalı, havası tez-tez dəyişdirilməlidir.

Sual və tapşırıqlar:

1. Şəxsi gigiyena qaydaları hansılardır?
2. Məktəbdəki bütün şagirdlərin gigiyena qaydalarına əməl etmələri üçün hansı tədbirin keçirilməsini təklif edərdiniz? Bu tədbirdə hansı gigiyena qaydalarını diqqətə çatdırmaq istərdiniz?
3. Dırnaqların vaxtında kəsilməməsi sağlamlıqla bağlı hansı problemlərə yol aça bilər?
4. Aşağıdakı cədvəli tamamlayın:

Sağlamlığa təsir edən amillər	Orqanizmə təsiri
dişləri fırçalamamaq	*****
düzgün qidalanmamaq	*****
normal yuxu yatmamaq	*****
təmiz havada olmamaq	*****
nəqliyyatda kitab oxumaq	*****

18 Yoluxucu xəstəliklərdən qorunma yolları

IV bölmə

Anası Aydanı üzgüçülük hovuzuna apardı. Hovuzun rəhbərliyi ondan Aydanın sağlamlığı haqqında arayış istədi. Sizcə, bu sənədə nə ehtiyac var?

Yoluxucu xəstəliklər təhlükəli olub, bir insandan digərinə keçir. Bu xəstəliklərin çoxunu mikroorqanizmlər törədir. Törədicilər insan orqanizminə daxil olaraq orada müxtəlif xəstəliklərin yaranmasına səbəb olur.

?

Verilmiş xəstəlikləri törədicilərinə əsasən qruplaşdırın:
angina, vəba, Sibir yarası, QİÇS, hepatit, vərəm, qrip, qızılca, çiçək.

Yoluxucu xəstəliklər insanı elə ağır vəziyyətə gətirib çıxara bilər ki, bu da sonda ölümlə nəticələnər. Bu xəstəliklərin törədiciləri orqanizmə hava-damcı yolu, su və qida vasitəsilə, xəstə insanların əşyalarından istifadə etməklə, qanla, həşəratlar dişlədikdə, yaxud sancdıqda daxil ola bilir.

Milçəklər 70-ə qədər yoluxucu xəstəlik yayır.

Yoluxucu xəstəliklərin bir qismini ***viruslar*** törədir. Dünya səhiyyəsi virus xəstəliklərinə qarşı nə qədər mübarizə aparsa da, bu xəstəliklər azalmaq əvəzinə, daha da artır. Xəstəliklər haqqında az məlumatlı olub, qorunma qaydalarına diqqətsiz yanaşılarsa, bu zaman insan həyatını sona yetirəcək faciə baş verə bilər. Bütün dünyanı cənginə almış Covid-19 infeksiyası nəticəsində ölkəmizdə xeyli sayda insan həyatını itirmişdir.



Mütəxəssislər hesab edirlər ki, virusların yoluxma yolları müxtəlifdir. Məsələn, qrip virusları insana hava-damcı yolu ilə yoluxur. Belə xəstələrin əşyalarından istifadə edən, xəstə ilə eyni otaqda olan insanların da qripə yoluxma ehtimalı çoxdur.

Bir çox virus xəstəliklərinin geniş yayıldığı məkanlar isə stomatoloji kabinetlər, gözəllik salonları, üzgüçülük hovuzlarıdır. Stomatoloji kabinetlərdə, gözəllik salonlarında avtoklavın (*alətləri sterilləşdirmək üçün cihaz*) olması vacibdir.

Çünki insan bədəni ilə təmasda olan hər bir alət mütləq sterilizə olunmalıdır. Siz də diş həkiminə, gözəllik salonuna gedərkən bu barədə sual verməkdən çəkinməyin. Çünki QİÇS və hepatit xəstəliklərinin, eyni zamanda, göbələk xəstəliklərinin yayılmasında belə kütləvi məkanların rolu böyükdür. Bu işdə tədbirli olmaq təkcə bu müəssisələrdə çalışanların yox, eyni zamanda, bizim də məsuliyyətimizdir.

Qripə yoluxmusunuzsa:

- ✓ *bir neçə gün yataq rejimində qalmağa çalışın;*
- ✓ *məktəbə getməyin, çünki ətrafdakıları da yoluxdura bilərsiniz;*
- ✓ *ətrafdakıları yoluxdurmamaq üçün qoruyucu maskalardan istifadə edin;*
- ✓ *asqırdıqda mütləq ağız və burnunuzu örtməyə çalışın.*

Qurd xəstəlikləri də yoluxucu xəstəliklərə aiddir. Qurd xəstəliklərinə (helmintozlar) 3–12 yaşlı uşaqlar daha çox yoluxurlar. Hətta orqanizmdə eyni zamanda bir neçə növ qurd parazitlik edə bilər. Bu isə immunitetin zəifləməsinə, allergiyalara, mədə-bağırsaq, sinir sistemi pozğunluqlarına səbəb olur, orqan və toxumaları zədələyir, fiziki, əqli inkişafı ləngidir. İnsan qurd xəstəliklərinə (*askarid, exinokokk, öküz soliteri* və s.) müxtəlif yollarla yoluxa bilir.

Qurd xəstəliklərinə yoluxma mənbələri

ev heyvanları

çirkli əllər

yuyulmamış meyvə və tərəvəz

açıq su mənbələrindən su içmək

yaxşı bişirilməmiş ət

milçəklər

Birhüceyrəli heyvanların törətdiyi xəstəliklər də insanlar arasında geniş yayılıb. Dizenteriya amöbü, malyariya paraziti, lyambliya və s. birhüceyrəlilərin törətdiyi xəstəliklərdən qorunmağa çalışmalıyıq.



Malyariya parazitinə cücülər sancdıqda, dizenteriya amöbü və lyambliyalara isə su, qida və s. ilə yoluxmaq olur.

Bakteriyaların törətdiyi vərəm çox yayılmışdır. Bu xəstəliyi damcı və toz infeksiyası yaradır. Siz də evdə və məktəbdə toz qaldırmamağa, belə xəstələrlə təmasda olarkən qoruyucu maskalardan istifadə etməyə çalışın. Xəstələrin əşyalarından qətiyyən istifadə etməyin.

Yoluxucu xəstəliklərə yoluxma yaxşı yuyulmamış meyvə, tərəvəz, çirkli sudan, natəmiz qablardan istifadə etdikdə, eyni zamanda, pis vərdişlərdən – çirkli əlləri ağıza vurduqda, dırnaqları dişləyib-udduqda və s. baş verir. Buna görə də yaşadığınız evin təmizliyinə ciddi nəzarət etməli, kiçik bacı və qardaşlarınıza gigiyena qaydalarına əməl etməyi öyrətməlisiniz. Əgər xəstələnərsinizsə, həkimə vaxtında müraciət etsəniz, yoluxucu xəstəliklərdən qoruna bilərsiniz. İnsan öz sağlamlığının qoruyucusu olmalı və bu sağlamlıq uğrunda mübarizə aparmalıdır.

!

Sual və tapşırıqlar:

1. Qurd xəstəlikləri nə üçün yoluxucu xəstəliklərə aid edilir? Fikrinizi əsaslandırın.

2. Angina xəstəliyinə yoluxma yollarını araşdırın.

3. Siz tibb üzrə mütəxəssiz olsaydınız, əhalini yoluxucu xəstəliklərdən qorumaq üçün hansı profilaktik tədbirlər görməyi planlaşdırardınız?

4. İnsanların yoluxucu xəstəliklərdən qorunması yollarını əks etdirən plakat hazırlayın.

5. Xəstəliklərə görə cədvəli tamamlayın: *vərəm, dizenteriya, exinokokkoz, çiçək, qrip, hepatit, malyariya, askaridoz, koronavirus*

Xəstəlik	Törədicisi	Qorunma yolları
*****	*****	*****
*****	*****	*****

6. Kimlərin Covid-19 virusuna yoluxma riskinin daha çox olduğu ilə bağlı məlumat toplayın və yoldaşlarınızla müzakirə edin.

7. Yuyulmamış meyvə-tərəvəzdən istifadə, ərzaqların üstünün açıq saxlanması hansı xəstəliklərə səbəb olar?

19 Təhlükəsizliyin təmin olunması

IV bölmə

Paltaryuyan maşın, elektrik plitəsi, ütü, tozsoran və s. cihazlar elektrik-məişət avadanlıqlarıdır. Bu cihazlar gündəlik həyatımızda işimizi asanlaşdırsa da, bəzən təhlükə də yaradır. Onlar hansı təhlükələri yarada bilər? Bu zaman biz necə davranmalıyıq?

Qəflətən və gözlənilmədən baş verən yaralanmalar, həyat itkisinə və ya maddi itkiyə səbəb olan hadisələr qəza adlanır. Müasir dövrdə elm, texnika və texnologiyanın inkişafı ilə yanaşı, qəza hallarının da sayı durmadan artır.

Çoxumuz elə hesab edirik ki, mənzillərimiz ən təhlükəsiz yerdir. Lakin qəza halları ilə tez-tez məhz elə evdə olarkən üzləşirik.

?

Evdə yaranan qəzalar hansı səbəblərdən baş verir? Cədvəli tamamlayın.

Evdə yaranan qəzalar	*Yıxılma və zərbələr*	*Kəsiklər*	*Zəhərlənmə*	*Elektrik vurması*	*Yanıqlar*
Qəzaların səbəbləri	*****	*****	*****	*****	*****

Məişətdə baş verən qəzalar zamanı yaşlılarla yanaşı, uşaqlar da çox zərər çəkirlər. Ona görə də aşağıdakılara xüsusi diqqət yetirməyiniz məsləhətdir:

- ✓ *ailədə və ətrafınızda təzəcə gəzməyə başlayan uşaqlara xüsusi diqqət yetirin;*
- ✓ *evdə kəsici və deşici alətlərlə ehtiyatla davranın, istifadədən sonra yerinə qoyun;*
- ✓ *mətbəxdə valideynlərinizə kömək edərkən kimyəvi maddə və dərmanlardan uzaq olun;*
- ✓ *evdə yaşlılar varsa, otağın tam və aydın işıqlandırılmasına çalışın, pilləkənləri düşərkən onlara yardım edin;*
- ✓ *zəhərlənmənin qarşısını almaq üçün vaxtı keçmiş qida və dərmanları dərhal atın;*
- ✓ *boyunuz çatmayan yerlərə qalxıb nəsə götürməyin;*
- ✓ *baş verə biləcək fövqəladə hallar (yanğın, partlayış, su hövzələrində qəzalar, ağır yol-nəqliyyat hadisəsi və s.) zamanı "112" qaynar xəttinə zəng edib məlumat verin.*

Elektrik cihazları yanarsa:

- ✓ *cihazı cərəyandan ayırın və ya mənzilin elektrik təchizatını dayandırın;*
- ✓ *cərəyandan ayırdıqdan sonra hələ də yanma davam edərsə, üzərini qalın parça ilə örtün;*
- ✓ *qapı və pəncərəni möhkəm bağlayın;*
- ✓ *evi tərk edin;*
- ✓ *yanğınsöndürmə xidmətinə xəbər verin.*

Elektrik cərəyanının insan üçün təhlükəsini bilirsiniz. Odur ki aşağıdakı təhlükəsizlik qaydalarının hər birinə mütləq əməl edilməlidir:

- ✓ *Üstüaçıq naqil gördükdə böyüklərə xəbər verin;*
- ✓ *Şəbəkədən elektrik cihazlarını ayırarkən naqildən tutmayın;*
- ✓ *Şəbəkəyə eyni vaxtda çox sayda elektrik cihazını qoşmayın;*
- ✓ *Uzadıcıdan istifadə etdikdən sonra əvvəlcə onu şəbəkədən ayırın, sonra yığın;*
- ✓ *Cihazların naqillərinin qapı, mebel və s. əşyaların arasında qalmasına, qaz kəmərlərinə, istilik batareyalarına toxunmasına yol verməyin.*

Qaydalara riayət olunmaması yanğınla nəticələnə bilər.

Fövqəladə halların bir qismi də küçələrdə baş verir. Belə təhlükəni insanın vəfalı dostu olan itlər də yarada bilir. Biz heyvanlara qayğı göstərməli, onları incitməməliyik. Ancaq bəzən küçədəki sahibsiz itlər çox təhlükəli olur. Əgər it sizə hücum edərsə, bundan qorunmaq üçün aşağıdakıları bilməyiniz vacibdir:

- ✓ *əlinizdə çətir və ya çanta varsa, onunla itin qabağını kəsməyə çalışın;*
- ✓ *arxanızı itə çevirməyin;*
- ✓ *ilk növbədə, boğazınızı qoruyun;*
- ✓ *əlinizi qabağa uzadın. Əgər şərfiniz varsa, onu əlinizə dolayın;*
- ✓ *əgər yıxılmışsınızsa, üzüüstə çevrilin, əllərinizlə boynunuzu qorumağa çalışın.*

Nəqliyyat vasitələrinin yaratdığı qəzalar da fövqəladə hadisələrə aiddir. Belə hadisələr nəticəsində həm nəqliyyat vasitələrinin içində olanlar, həm də piyadalar zərər çəkir. Piyadaların riayət etməli olduğu qaydalarla siz artıq beşinci sinifdə tanış olmuşsunuz. İctimai yerlərdə ola biləcək digər təhlükələr zamanı necə davranacağınızı bilməyiniz də çox vacibdir.

Terror təhlükəsi ola bilər:

- ✓ *gözlənilməz yerdə məftil çəkilməsi müşahidə edildikdə;*
- ✓ *metro stansiyasında, nəqliyyatda, yaxud binanın girişində naməlum bağlama və ya əşya olduqda;*
- ✓ *maşınların altında uzanan məftil olduqda;*
- ✓ *yolun kənarında qazılmış çuxur olduqda;*
- ✓ *naməlum ünvanlardan bağlama və ya məktub gəldikdə.*

Davranış qaydaları:

- ✓ *Sahibsiz əşyalara toxunmamalı;*
- ✓ *Terror əlaməti hiss etdikdə dərhal "102" və ya "112" qaynar xəttinə məlumat verməli.*

XXI əsrin fəlakəti olan terror hazırda geniş yayılmışdır.

Keçən əsrin 90-cı illərində Bakı metropolitenində bir neçə terror aktı törədilmişdir.

Bakıda 30 aprel 2009-cu il tarixində səhər saatlarında odlu silahla silahlanmış şəxs Azərbaycan Dövlət Neft Akademiyasının binasına basqın etmişdir. O, akademiyanın binasına daxil olduqdan sonra birinci mərtəbədən yuxarı mərtəbəyədək qarşısına çıxan müəllim və tələbələri güllələmişdir.

Gəncə 11 oktyabr 2020-ci il tarixində Ermənistan Silahlı Qüvvələri tərəfindən gecə saatlarında raket atəşinə tutulmuşdur. Bu, əhalinin sıx olduğu məntəqələrdə insan tələfatına və maddi ziyana səbəb olmuşdur.

- ✓ *Axşamlar küçəyə tək çıxmayın, adam olmayan, zəif işıqlandırılan küçələrdə gəzməyin;*
- ✓ *İnsanların çox toplaşdığı yerlərdən uzaq olun;*
- ✓ *Sizə təhlükəli görünən insanlardan və ya əşyalardan uzaqlaşmağa çalışın. Zərurət olduqda yaxınlıqdakı polis işçisinə və ya mühafizə müəssisəsinin əməkdaşına müraciət edin.*

Vətən müharibəsi zamanı ermənilər tərəfindən ərazilərimizə basdırılmış minalar və atılıb qalmış mərmilər də təhlükə mənbəyidir.

Bunlara döyüşlər aparılmış yerlərdə; tərk edilmiş hərbi texnikanın, tikililərin içində; bunkerlərdə; ot basmış ərazilərdə və becərilməmiş sahələrdə; körpülərdə; rabitə və elektrik qovşaqlarında; kəsə yollarda, cığırlarda və keçidlərdə; tərk edilmiş yaşayış məntəqələrində rast gəlmək olar.

Ona görə də:

- sizə tanış olmayan ərazilərə daxil olmaqdan çəkinin!
- minalara, mərmilərə, onların qalıqlarına rast gəlsəniz, toxunmayın!

Biz baş verə biləcək bütün təhlükələrə həmişə hazır olmalı və bu zaman nə edəcəyimizi bilməliyik.

Sual və tapşırıqlar:

1. İctimai yerlərdə qəzalardan uzaq olmaq üçün hansı qaydalara əməl olunmalıdır?

2. Məişətdə təhlükəsiz davranış qaydalarına aşağıdakılardan hansılar aiddir?

a) axşamlar tək küçəyə çıxmamaq;
b) boyunuz çatmayan yerlərdən qalxıb heç nə götürməmək;
c) adam olmayan, zəif işıqlandırılan küçələrdə gəzməmək;
d) şəbəkəyə bir neçə elektrik avadanlığı qoşmamaq;
e) insanların çox toplaşdığı yerlərdən uzaq olmaq;
f) kəsici və deşici alətlərlə ehtiyatla davranmaq, istifadə etdikdən sonra yerinə qoymaq.

3. Kinoteatrda, əyləncə mərkəzlərində, metroda hansı təhlükəli hallarla rastlaşa bilərsiniz? Bu zaman hansı davranış qaydalarına əməl olunmalıdır?

4. Şəkillərdə göstərilən fövqəladə hadisələrdən necə qorunmaq olar? Fikrinizi əsaslandırın.

20 Təbiətdəki təhlükəli hadisələrdən qorunaq

IV bölmə

1139-cu ildə Gəncədə baş vermiş zəlzələ nəticəsində Kəpəz dağının bir hissəsi uçaraq Ağsu çayının qarşısını kəsmiş və Göygöl yaranmışdır.

XX əsrin əvvəllərində (1920) 100000 nəfər insanın ölümünə səbəb olan ən dağıdıcı sürüşmə Çinin Qansu əyalətində baş verib.

Planetimizdə ən böyük sürüşmə (çəkisi 50 milyard ton, həcmi 20 kub kilometr) eramızın əvvəlində İranda Səidmarex çayının hövzəsində baş verib.

Yantsızı çayında daşqınlar (1911, 1931, 1954) zamanı aclıq nəticəsində 60 milyon insan zərər çəkib. Təkcə 1911-ci ildə 100 min insan tələf olub.

Bu faktlar yadınıza nəyi salır?

Sizin fövqəladə hadisələr haqqında müəyyən məlumatınız var. Zəlzələ, sel, daşqın, sunami, yanğın, ildırım çaxması, sərt şaxtalar, güclü istilər, torpaq sürüşməsi, vulkan, radioaktiv maddələrin yayılması, epidemiyalar *(yoluxucu xəs-*

Fövqəladə hadisələr təbii və texnogen olmaqla iki qrupa ayrılır.

Təbii fövqəladə hadisələr:

- ✓ *zəlzələ*
- ✓ *sel*
- ✓ *daşqın*
- ✓ *sunami*
- ✓ *yanğın*
- ✓ *ildırım çaxması*
- ✓ *sərt şaxtalar*
- ✓ *güclü istilər*
- ✓ *torpaq sürüşməsi*
- ✓ *vulkan*
- ✓ *epidemiyalar*

Texnogen fövqəladə hadisələr:

- ✓ *radioaktiv çirklənmə*
- ✓ *kommunal sistemlərdə qəza*
- ✓ *dəm qazından zəhərlənmə*
- ✓ *yol-nəqliyyat qəzaları*
- ✓ *yanğın*
- ✓ *partlayış*

Zəlzələnin fəsadları:

- ✓ *dağıntı*
- ✓ *sürüşmələr*
- ✓ *tələfat*

təliklərin yayılması), nəqliyyat qəzaları və s. bu kimi fəlakətlər insan həyatı üçün böyük təhlükə yaradır.

Bu cür fövqəladə hadisələr zamanı hamımız necə davranacağımızı bilməli və qaydalara riayət etməliyik.

Respublikamızın ərazisi fəal seysmik zonada yerləşdiyindən hər an zəlzələ təhlükəsi gözlənilə bilər.

? Azərbaycanda zəlzələlərin başvermə ehtimalını əks etdirən xəritəyə əsasən 8 ballıq zəlzələlərin baş verə biləcəyi əraziləri müəyyən edin.



Zəlzələ baş verərsə, insanlar nə etməli, nəyi bilməlidirlər?

Tarix boyu baş verən zəlzələlərin təhlili sübut edir ki, bu təbiət hadisəsindən qorunmağın əsas yolu fəlakət baş verdiyi anda insanın özünü itirməməsidir. İlk təkanları hiss edən kimi vahiməyə düşmədən, səs-küy və qışqırtı salmadan həm özünüzə, həm də ətrafdakılara kömək göstərə bilərsiniz. Bunu necə edəcəyinizi bilməlisiniz:



- ✓ *Yeraltı təkanları hiss edən kimi dərhal mənzilin və otağın qapısını açın. Zəlzələ nəticəsində divarların əyilməsindən giriş qapıları pərçimlənir və bu sonradan onu açıb otaqdan çıxmağa imkan vermir;*
- ✓ *Əgər otaqdasınızsa, təcili olaraq təhlükəsiz yerə keçin. Masanın və ya çarpayının altına girin. Otağın əsas divarına yaxın olan daxili küncündə durun;*
- ✓ *Zəlzələ zamanı ən çox binanın xarici divarları uçduğundan heç vaxt otağın xarici divarına yaxın yerdə, xüsusilə də otağın ortasında durmayın;*
- ✓ *Pəncərələrdən, yerindən tərpənən və yıxıla bilən ağır əşyalardan, məsələn; soyuducudan, mebeldən və s. uzaq dayanın;*
- ✓ *Qaçaraq binadan çıxmayın. Yuxarıdan divarboyu düşən qırıntılar çox təhlükəli olur;*
- ✓ *Çoxmərtəbəli binanın içərisindəsinizsə, ən yaxşısı, elə oradaca qalmaqdır. Pilləkənə çıxmağa tələsməyin və liftə minməyin. Unutmayın ki, zəlzələ vaxtı ən çox lift və pilləkən sıradan çıxır.*

Fövqəladə hallarla bağlı davranış qaydaları haqqında

Fövqəladə Hallar Nazirliyinin rəsmi internet səhifəsindən (www.fhn.gov.az) məlumat əldə edə bilərsiniz.

Sel dağ çaylarının yatağında intensiv yağışın, buz və mövsümi qar ərimələrinin nəticəsində gözlənilmədən yaranan palçıqlı və daşlı-palçıqlı axındır. Sel su hövzələrinin dağılmasından, zəlzələ və vulkanlardan sonra da yarana bilər. İnsanlar, yaşayış yerləri, mühəndis və yol qurğuları sel, daşqınlar zamanı fəlakətlə üzləşə bilər.

Daşqın çay yataqlarının su ilə tam dolması nəticəsində suyun daşaraq ətraf əraziləri basmasıdır.

Sel və daşqın zamanı aşağıdakılara əməl etmək vacibdir:

- ✓ *Yamaclarla 50–100 m-dən yuxarı qalxın. Sellə birlikdə həyat üçün təhlükə yaradan ağır daşlar, təhlükəli materiallar gələ bilər;*
- ✓ *Açıq ərazidəsinizsə, dərhal yüksək bir yerə çıxın;*
- ✓ *Su yatağı olan və ya çuxur bir yerdəsinizsə, dərhal həmin ərazini tərk edin;*
- ✓ *Sel sularının toplandığı bölgələrdə avtomobildən istifadə etməyin. Hər hansı bir qəza baş veribsə, avtomobili dərhal tərk edin;*
- ✓ *Elektrikin sizi vurmaması üçün elektrik xətlərindən uzaq durun;*
- ✓ *Hərəkətli sularda ağacdan istifadə etməklə yeriyin;*
- ✓ *Müəyyən miqdarda quru qida və su, ailənizin ehtiyacı olduğu dərmanları götürün;*
- ✓ *Sel suları ilə çirklənmiş yeməkləri yeməyin;*
- ✓ *Quyulardan götürülən sular yalnız analiz edildikdən sonra istifadə oluna bilər;*
- ✓ *Binada qaz sızıntısı olduğunu hiss etdikdə işıqdan istifadə etməyin.*

Daşqın zamanı mümkün olduğu qədər yuxarı mərtəbəyə, çardağa, hündür ağaclara, evin damına çıxın. Kiçik ağaclara, dirəklərə çıxmayın, axın onları yuyub apara bilər. Su basmış zonanı tərk edə bilməsəniz, mümkün olan bütün siqnalları verərək evin damında kömək gözləyin. Əgər suya düşsəniz, əyninizdə olan ağır paltarları, ayaqqabını çıxarın, yaxınlıqda olan əşyalara doğru üzün və kömək gözləyin.

Sürüşmə ağırlıq qüvvəsinin təsiri altında yumşaq dağ süxurunun eniş üzrə düşməsidir. Sürüşmə süxurların gil qatından, ərazinin meyilliliyindən və rütubətlənmə dərəcəsindən asılıdır. Torpaq sürüşmələri dağlıq və seysmik bölgələrdə tez-tez baş verən təbii hadisədir. Sürüşmə yaşayış və istehsalat binalarının dağılmasına və çökməsinə, boru kəmərlərinin və elektrik ötürücülərinin sıradan çıxmasına, insanların zərər çəkməsinə və həlak olmasına səbəb ola bilər. Sürüşmənin ilk əlamətləri çatların əmələ gəlməsi, binaların qapı və pəncərələrinin sıxılması, əraziyə su sızmasıdır. Bəs bu zaman nə etməli?

- ✓ *Sürüşmə təhlükəsi haqqında məlumat alan kimi elektrik və qaz cihazlarını söndürün, suyu bağlayın;*
- ✓ *Sürüşmənin sürəti aşağıdırsa, əvvəlcədən hazırlanmış məkana gedin. Özünüzlə sənədlərinizi, qiymətli əşyalarınızı, geyim və ərzaq götürməyi də unutmayın;*
- ✓ *Sürüşmə bölgəsindən uzaqlaşmaq üçün lazımi vaxtınız yoxdursa, içəridə qalın. Möhkəm əşyalardan tutub bükülü vəziyyətdə uzanın;*
- ✓ *Torpaq sürüşməsinin və ya palçıq axıntısının gəldiyi yolun üzərində dayanmayın;*
- ✓ *Ətrafınızda yaşayan insanlara torpaq sürüşməsinin olduğu barədə xəbərdarlıq edin;*
- ✓ *Radio və digər kütləvi informasiya vasitələri ilə sizə ediləcək xəbərdarlıqları dinləyin və deyilənləri tətbiq edin;*
- ✓ *Əşya götürmək üçün zərər çəkmiş binalara girməyin.*

İldırım çaxması və ***tufan*** da təhkükəlidir. İldırım zərbəsi, ilk növbədə, ən hündürdə olan obyektə (*ağac, dirək* və s.) dəyir. Hər il dünyada ildırım vurmasından xeyli insan həlak olur.

- ✓ *Qıığılcımdan sonra göy gurultusu müşahidə olunarsa, ildırım o zaman çox təhlükəlidir. Bu halda pəncərə, qapı və nəfəslikləri bağlayın, televizor, radio və digər elektrik cihazlarını söndürün. Sobanı yandırmayın;*
- ✓ *Telefonla danışmayın: ildırım bəzən elektrik naqillərinin üzərinə də düşür;*
- ✓ *Əgər meşədəsinizsə, meşənin alçaq ağaclıq yerinə sığının. Hündür ağacların, xüsusilə şam, palıd və qovaq ağacının yanında gizlənməyin.*
- ✓ *Su hövzəsi, yaxud onun sahilində dayanmayın. Sahildən kənarlaşın, hündür yerdən aşağı düşün;*
- ✓ *Düzənlikdə və ya daldalanmağa yer olmayan bir ərazidəsinizsə, yerə uzanmayın. Yoxsa bütün bədəninizi elektrik cərəyanının təsiri altında qoyarsınız. Dayaz bir yerdə, yarğanda və ya digər təbii bir dərinlikdə əyləşin, əllərinizlə ayaqlarınızdan tutun;*
- ✓ *Tufan zamanı idman alətlərindən istifadə edirsinizsə, dərhal dayanın. Metal əşyaları kənara qoyun və onlardan 20–30 metr aralıda durun;*
- ✓ *Əgər tufan sizi avtomobildə yaxalayıbsa, maşından düşməyin. Pəncərə şüşələrini qaldırın və antenanı aşağı salın.*

Çovğun güclü küləklə qarın sovrulmasıdır. Əgər güclü çovğun olacağı haqqında məlumat almısınızsa:

- ✓ Qapı və pəncərələri, çardağın qapılarını və nəfəslikləri bağlayın; Pəncərələrin şüşələrini kağız lent ilə yapışdırın; Su, ərzaq, dərman ehtiyatı, fənər, lampa, şam tədarükü görün; Batareya ilə işləyən radioqəbuledicilər hazırlayın.
- ✓ Çovğuna və ya qar uçqununa düşsəniz, qayaların, böyük ağacların gövdəsinin altında üzüüstə yerə uzanıb başınızı tutun (*daş və ya buz parçalarından qorunmaq üçün*), paltarınızla ağzınızı örtüb nəfəs almağa çalışın.
- ✓ Avtomobillə yalnız əsas yollarda və şoselərdə hərəkət etmək olar. Maşını tərk etməyin, yatmayın, maşının mühərriki işləyirsə, əmələ gələn dəm qazından zəhərlənməmək üçün pəncərəni bir qədər açın.

Sual və tapşırıqlar:

1. Aşağıda göstərilənlərdən təbii fövqəladə hadisələri seçin. Hansı hadisələr zamanı eyni davranış qaydalarına əməl olunacağını müəyyənləşdirin:

Kommunal sistemlərdə qəza, zəlzələ, sel, sunami, radioaktiv çirklənmə, daşqın, dəm qazından zəhərlənmə, partlayış, yol qəzası, ildırım çaxması, sərt şaxtalar, yanğın.

2. Fövqəladə hadisələri, yarana biləcək təhlükəni və bu zaman riayət olunacaq davranış qaydalarını cədvələ uyğun tamamlayın.

Fövqəladə hadisələr	Yarana biləcək təhlükə	Davranış qaydaları
çovğun	*****	*****
ildırım çaxması	*****	*****
zəlzələ	*****	*****
sel	*****	*****

3. Verilmiş əlamətlər hansı təbii fövqəladə hadisələr zamanı müşahidə olunan davranış qaydalarıdır? Cədvəli tamamlayın.

Davranış qaydaları	Fövqəladə hadisələr
Palçıq axıntısının gəldiyi yolun üzərində dayanmayın.	*****
Dərhal yüksək bir yerə çıxın.	*****
Qayaların, böyük ağacların altında üzüüstə yerə uzanıb başınızı tutun.	*****

21 Texnogen mənşəli qəzalardan qorunaq

IV bölmə

Radioaktiv çirklənmə, kommunal sistemlərdə qəzalar, dəm qazından zəhərlənmə, yanğın və partlayış, yol qəzaları, şüalanma və s. texnogen qəzalardır. Siz artıq təbii mənşəli fövqəladə hadisələr zamanı "112" qaynar xəttindən istifadə edəcəyinizi və hansı davranış qaydalarına əməl etməli olduğunuzu bilirsiniz. Bəs texnogen mənşəli qəzalar zamanı necə davranacağınızı bilirsinizmi?

Ətraf mühitin ən təhlükəli çirklənməsi hesab olunan ***radioaktiv çirklənmə*** fövqəladə hadisədir. Çox vaxt bu hadisəni "çıraqdakı cin"ə* bənzədirlər. Çünki atom enerjisindən dinc məqsədlərlə istifadə olunur. Lakin atom enerjisi ilə işləyən obyektlərdə təhlükəsizlik qaydalarının pozulması nəticəsində radioaktiv şüalanma və radioaktiv çirklənmə baş verir. Havada radiasiya olduqda radioaktiv maddələr orqanizmdə sürətlə toplanır. Bu zaman orqanların funksiyaları pozularaq (*ən çox sümük iliyi, sinir sistemi* və s.) müxtəlif irsi, hətta ölümlə nəticələnə bilən xəstəliklər yaradır.

* *Nağıllarda təsvir olunan və çıraqdan çıxan cin nəzərdə tutulur.*

Radioaktiv çirklənmə zamanı nə etməli:

- ✓ *Əgər siz küçədəsinizsə, təcili surətdə tənəffüs orqanlarınızı müha-fizə edin – burnunuzu, ağzınızı şərf və ya nəm dəsmalla qapayın;*
- ✓ *Təcili evə gəlin, üst paltarlarınızı çıxarın və duş qəbul edin. Bütün pəncərə və qapıları mümkün qədər kip qapayın;*
- ✓ *Bir stəkan suya 3–5 damcı yod məhlulu damızdırıb (uşaqlara 1–2 damcı) için;*
- ✓ *Küçəyə az çıxın. Zəruri hallarda respiratorlardan və uyğun geyim-lərdən (kip gödəkçə, plaş, altı hündür ayaqqabı) istifadə edin;*
- ✓ *Yemək hazırlamaq üçün lazım olan suyu yalnız su boruları və qoru-nan quyulardan götürün;*
- ✓ *Soyuducularda, şkaflarda və emallı qablarda, polietilen kisələrdə olan yararlı ərzaqlardan istifadə edin.*

Statistik məlumatlara görə, XX əsrin son 20 ili ərzində dünyada, ümumilikdə, 800 milyondan artıq insan müxtəlif fəlakətlərdən zərər çəkmiş, 140 min insan tələf ol-muşdur. İllik maddi zərəri isə 100 milyard dollardan artıq vəsait təşkil etmişdir.

Atom elektrik stansiyalarında baş verən nəinki böyük qəzalar, hətta kiçik qəzalar belə çox təh-lükəlidir. Bu hadisələr çox vaxt yanğınlara səbəb olur. Bu da bəzi maddələrin ətrafdakı mey-və və tərəvəzə hopması nəticə-sində müxtəlif xəstəliklər törədir. Bu, hətta bitki və heyvanların da məhvinə səbəb olur.

Supermarketlərdə, böyük mağazalarda, və digər ictimai yerlərdə baş verən yanğın evdəkindən çox fərqlənir. Bu yanğınlardan daha çox insanlar zərər çəkir.

Otağınızda yanğın təhlükəsi törədə biləcək mənbələr hansılardır və yanğın baş verərsə, necə davranarsınız?

Yanğın zamanı nə etməli:

- ✓ *təlaşa düşməyin;*
- ✓ *yanan otağı dərhal tərk edin;*
- ✓ *burnunuzu və ağzınızı nəm parça ilə bağlayın;*
- ✓ *paltarı yanan insanı qaçmağa qoymayın, paltarını soyunmağa kömək edin və ya üzərinə sintetik olmayan istənilən hər hansı bir örtüyü atın;*
- ✓ *ictimai yerlərdə yanğınsöndürən vasitələr varsa, onlardan istifadə etməyə çalışın.*

Sual və tapşırıqlar:

1. Radioaktiv çirklənmə və epidemiyalar zamanı lazım olan davranış qaydalarını bir-biri ilə müqayisə edin.

2. Nəyə görə radioaktiv çirklənmə zamanı açıqda qalan ərzaqlardan istifadə etmək olmaz?

3. Yol qəzaları zamanı hansı davranış qaydalarına riayət olunmasını müəyyənləşdirin.

4. Verilənlərdən ən çox təhlükəli olanları seçin:

Kibrit stolun üstünə atılıb;	*Paltar qaz plitəsinin üstündə qurudulur;*
Külqabı dolub;	*Yolkada işıqlar yanır;*
Ütü stolu yığışdırılmayıb;	*Ütü xəttə qoşulub;*
Elektrik naqili xalçanın altındadır;	*Elektrik naqili su kranına yaxındır.*

5. Nə üçün radioaktiv çirklənmə zamanı altı qalın ayaqqabı geyinmək tövsiyə olunur? İzah edin.

6. Çoxmərtəbəli binanın axırıncı mərtəbəsində yanğın baş verərsə, hansı qaydalara əməl edilməlidir? Sadalayın.

7. “Məktəbdə yanğın və yanğınsöndürənlər” mövzusunda səhnəcik hazırlayın.

22 Yol nişanlarına diqqət edək

IV bölmə

Gördüyünüz yol nişanları nəyi ifadə edir və siz bu nişanları necə qruplaşdıra bilərsiniz?

Qədimdə nəqliyyat vasitələrində dartıcı qüvvə kimi, əsasən, müxtəlif heyvanlardan istifadə olunurdu. Elm və texnikanın inkişafı avtomobilin ixtirası ilə nəticələndi. Bununla da yollarda hərəkət sürəti artdı. Avtomobillərin düzgün idarə edilməsi üçün sürücüləri yol haqqında məlumatlandıran yol nişanlarına ehtiyac yarandı. Beləliklə, dünyada ilk yol nişanları XIX əsrin sonlarında ilk avtomobillərlə birlikdə meydana çıxdı.



İlk çarxlı nəqliyyat vasitələri

Əvvəllər hər bir ölkənin öz yol nişanları var idi. Beynəlxalq avtomobil yolları inkişaf etdikcə yol nişanlarının dünyada bütün sürücülər tərəfindən başa düşülməsi zərurəti yarandı. Bu məqsədlə 1968-ci ildə Vyanada "Yol hərəkəti haqqında" Beynəlxalq Konvensiya qəbul edildi. 1997-ci ildən ölkəmiz də bu Konvensiyaya qoşulmuşdur.

Sürücülərin zəruri tədbirləri vaxtında həyata keçirməsi üçün yol nişanlarını bilmələri olduqca vacibdir. Onların yol nişanlarının mənasını bilməməsi səbəbindən yol qəza hadisələri yaranır. Bundan ən çox əziyyət çəkən isə piyadalar olur.

Yol nişanları aşağıdakı kimi qruplaşdırılır:

- ✓ *xəbərdarlıq nişanları;*
- ✓ *məcburi hərəkət istiqaməti nişanları;*
- ✓ *məlumatverici-göstərici nişanlar;*
- ✓ *əlavə məlumat nişanları (lövhəcikləri);*
- ✓ *üstünlük nişanları;*
- ✓ *servis nişanları;*
- ✓ *qadağan nişanları;*
- ✓ *nəqliyyat vasitələrinin tanınma nişanları.*

?

Sizcə, nə üçün yol nişanları bu cür qruplaşdırılıb?

Xəbərdarlıq nişanları sürücülərə və piyadalara yolların təhlükəli sahələri haqqında xəbərdarlıq edir. Sürücü bu nişanları görərkən daha diqqətli olmalı və hərəkət sürətini azaltmalıdır. Xəbərdarlıq nişanlarının əksəriyyəti qırmızı haşiyəsi və ağ fonu olan üçbucaq formasındadır.

İkitərəfli hərəkət

Piyada keçidi

Velosiped zolağı ilə kəsişmə

Uşaqlar

Alçaqdan uçan təyyarələr

Yol işləri

Təhlükəli döngələr

Digər təhlükələr

? – Verilmiş xəbərdarlıq nişanına harada rast gəlmisiniz? Bu işarənin həmin ərazidə qoyulması nə üçün vacibdir?

Üstünlük nişanları yolayrıcılarını və yolun hərəkət hissəsinin kəsişmələrini göstərir. Üstünlük nişanlarının vahid forma və rəngi yoxdur.

Dayanmadan keçmək qadağandır!

Yol verin!



Baş yol



Baş yolun sonu

Qadağan nişanları qırmızı rənglə haşiyələnmiş dairə formasındadır. Bu nişanlar yollarda, yaxud yolların ayrı-ayrı sahələrində nəqliyyat vasitələrinin, piyadaların hərəkətini məhdudlaşdırır və ya qadağan edir.

Dayanmaq qadağandır!

Durmaq qadağandır!

Geriyə dönmək qadağandır!

Giriş qadağandır!

Məcburi hərəkət istiqaməti nişanları sürücülərə nəqliyyat vasitələrinin hərəkətinin icazə verilmiş istiqamətini, sürətini, piyadalar üçün nəzərdə tutulan yolları göstərir. Dairəvi formalı bu nişanların mavi fonu var.

Sağa hərəkət

Düzünə hərəkət

Sola hərəkət

Dairəvi hərəkət

Məlumatverici-göstərici nişanlar yaşayış məntəqələrinin və başqa obyektlərin yerləşməsi barədə məlumat verir. Bu nişanlar düzbucaqlı formasındadır. Yaşayış məntəqələrinin adları, yolun vəziyyəti, yolboyu obyektlərin yerləşməsi və s. barədə məlumatlar bu nişanlar vasitəsilə verilir.

Yaşıl fon avtomagistral, göy fon başqa avtomobil yolları, ağ fon yaşayış məntəqəsi göstəricisi deməkdir.

Birtərəfli yolun qurtaracağı

Yeraltı piyada keçidi



Zolağın başlanğıcı



Zolaqlarla hərəkət istiqaməti

Servis nişanları uzaq səfərə çıxanlara müvafiq obyektlərin yerləşməsi haqqında məlumat verir. Bu nişanlar düzbucaqlı formasında olub, enli mavi haşiyəyə malikdir.

Avtobusun dayanacaq yeri

Avtomobillərin yuyulma məntəqəsi

İçməli su

Restoran

İlk tibbi yardım məntəqəsi

Telefon

Xəstəxana

Yanacaqdoldurma məntəqəsi

Əlavə məlumat nişanları birlikdə qoyulduğu digər qrupların nişanlarını dəqiqləşdirmək və ya məhdudlaşdırmaq üçün istifadə olunur. Hərəkətin daha rahat təşkilinə imkan yaradır.

Nəqliyyat vasitəsinin növü

Nəqliyyat vasitələrinin duracağa qoyulma üsulu

Obyektə qədər məsafə

Nəqliyyat vasitələrinin tanınma nişanları adından da göründüyü kimi, nəqliyyat vasitələrini tanımağa xidmət edir.

Uşaqları aparan nəqliyyat vasitəsinin tanınma nişanı

Təlim nəqliyyatı

Təhlükəli yük aparan avtomobillərin nişanı

Yol hərəkəti nişanlarını tanısaq və fərqləndirsək, yollarda baş verən qəzaların sayını azaltmış olarıq.

Sual və tapşırıqlar:

1. Aşağıdakı cədvələ müvafiq nişanları çəkin.

Xəbərdarlıq nişanları	Məlumatverici-göstərici nişanlar	Servis nişanları	Qadağan nişanları	Üstünlük nişanları
*****	*****	*****	*****	*****

2. Yol hərəkəti qaydalarına aid səhnəcik hazırlayın.

3. Şəkildə göstərilən nişan sürücülərə nə barədə məlumat verir? Əgər bu nişan olmazsa, nə baş verər?

4. Sürücü şəkildəki nişanı gördükdə avtomobilin sürətini azaldır. Burada hansı yol nişanı qoyula bilər?

5. Maşın sürətlə gedərkən sürücü hansı nişanı görüb sürəti azaltmazsa, daha çox təhlükəli vəziyyət yaranar?

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

Azərbaycan dilində

1. “Ayna” uşaq ensiklopediyası. Bakı, “Ayna” Mətbu Evi, 2002.
2. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2018.
3. E.Kərimov, B.Osmanov. İqtisadi nəzəriyyə. Bakı, 2004.
4. Ekoloji siyasət. Bakı, 2008.
5. Fövqəladə hadisələrin təsnifatı (məlumat kitabı). Bakı, 2001.
6. Qurani-Kərim (Tərcüməçilər: akad. Ziya Bünyadov və prof. Vasim Məmmədəliyev), Bakı, 2011.
7. Q.Y.Abbasov. Etika: tarix, nəzəriyyə və təcrübə. Bakı, 2016.
8. Maqsud Qasımov. Sağlam həyat tərzi uğrunda. Bakı, 2005.
9. N.Əkbərov. Ailə və cəmiyyətdə əxlaq və davranış qaydaları. “Bərəkət” nəşriyyatı, Bakı, 2010.
10. N.Əkbərov. Məktəbdə əxlaq və davranış qaydaları. “Bərəkət” nəşriyyatı, Bakı, 2010.
11. Özünə və başqalarına kömək etməyi bacar (Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi). Bakı, 2004.
12. Rafiq Əliyev. Dinin əsasları. Bakı, 2001.
13. Ramil Əliyev. İqtisadi təhlilin nəzəriyyəsi. Bakı, 2002.
14. Rəfiqə Əliyeva, Qara Mustafayev, Sevinc Hacıyeva. Ümumi ekologiya. Bakı, 2004.
15. S.C.Əliyev, H.M.Hacıyeva, N.C.Mikayılzadə. Tibbi biliklərin əsasları. Bakı, 2004.
16. S.Tağıyeva və b. Həyati bacarıqlara əsaslanan təhsil. Müəllimlər üçün tədris vəsaiti. (V–IX siniflər). Bakı, 2006.
17. Ş.Ə.Topçiyeva, R.T.Qəndilov, S.Ş.Tağıyeva, Ş.Ə.Qocayev, G.N.Hacıyeva, N.Ə.Məmmədova, A.T.Hacıyeva və b. Həyati bacarıqlara əsaslanan təhsil. “Çaşıoğlu”, Bakı, 2007.
18. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı, 2009.

Türk dilində

19. Delius, Harald. Etik, Günümüz Felsefe Disiplinleri, D.Özlem, İstanbul.

Rus dilində

20. Коробкин В.И., Передельский Л.В. Экология. Ростов н/Д: Феникс, 2000.
21. Новиков Ю.В. Природа и человек. М., Просвещение, 1991.
22. Щепанская Т.Б. Культура дороги в русской мифоритуальной традиции XIX–XX вв. М., Индрик, 2003.

Buraxılış məlumatı

HƏYAT BİLGİSİ 6

Ümumi təhsil müəssisələrinin 6-cı sinifləri üçün
Həyat bilgisi fənni üzrə

DƏRSLİK

Tərtibçi heyət:

Müəlliflər:	**Nüşabə Məmmədova** **Könül Mahmudova**
İxtisas redaktoru	**Ülviyyə Eyyubova**
Psixoloq	**Səidə Əhmədova**
Buraxılışa məsul	**Rafiq Kazımov**
Üz qabığının dizayneri	**Nurlan Nəhmətov**
Dizayner və səhifələyici	**Kubra İbrahimova**
Redaktor	**Yeganə Abdullayeva**
Korrektor	**Nigar Əliyeva**
Texniki redaktor	**Sevinc Yusifova**
Baş redaktor	**Samirə Bektaşi**
Texniki direktor	**Xəqani Fərzalıyev**
Nəşriyyat direktoru	**Sevil İsmayılova**

Azərbaycan Respublikası Təhsil Nazirliyinin qrif nömrəsi: 2021-046

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələrilə yaymaq qanuna ziddir.

Hesab-nəşriyyat həcmi 4,2. Fiziki çap vərəqi 6. Formatı 70x100 1/16.
Kəsimdən sonra ölçüsü: 165x240. Səhifə sayı 96.
Şriftin adı və ölçüsü: məktəb qarnituru 10-12. Ofset kağızı. Ofset çapı.
Sifariş . Tiraj 60588. Pulsuz. Bakı – 2021

Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix: 09.07.2021

Çap məhsulunu nəşr edən:
“Şərq-Qərb” ASC
(Bakı, AZ1143, Hüseyn Cavid pr., 111)

Çap məhsulunu istehsal edən:
“Şərq-Qərb” ASC
(Bakı, AZ1123, Aşıq Ələsgər küç., 17)

Pulsuz

Əziz məktəbli!

Bu dərslik sizə Azərbaycan dövləti tərəfindən bir dərs ilində istifadə üçün verilir.

O, dərs ili müddətində nəzərdə tutulmuş bilikləri qazanmaq üçün sizə etibarlı dost və yardımçı olacaq.

İnanırıq ki, siz də bu dərsliyə məhəbbətlə yanaşacaq, onu zədələnmələrdən qoruyacaq, təmiz və səliqəli saxlayacaqsınız ki, növbəti dərs ilində digər məktəbli yoldaşınız ondan sizin kimi rahat istifadə edə bilsin.

Sizə təhsildə uğurlar arzulayırıq!